| 1.11.6.19 | Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi" publik hüquqi şəxs | 6,926,700.0 | 6,926,700.0 | |
| 1.11.6.23 | "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti" publik hüquqi şəxs | 7,054,100.0 | 7,054,100.0 | |
| 1.11.6.29 | İqtisadi dəstək üzrə tədbirlərin maliyyə təminatı | 330,000,000.0 | 330,000,000.0 | |
| 1.11.6.32 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 8,519,000.0 | 8,519,000.0 | |
| 1.12 | Əsas bölmələrə aid edilməyən xərclər | 1,155,331,718.0 | 1,129,548,008.0 | 25,783,710.0 |
| 1.12.1 | Ehtiyat fondları | 419,500,000.0 | 419,500,000.0 | |
| 1.12.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 300,000,000.0 | 300,000,000.0 | |
| 1.12.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 119,500,000.0 | 119,500,000.0 | |
| 1.12.2 | Məqsədli büdcə fondları | 363,020,725.0 | 363,020,725.0 | |
| 1.12.2.3 | Ətraf mühitin mühafizəsi üzrə dövlət fondu | 17,161,800.0 | 17,161,800.0 | |
| 1.12.4 | Əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 368,810,993.0 | 343,027,283.0 | 25,783,710.0 |
| 1.12.4.3 | Ehtiyata və ya istefaya buraxılmış hərbçilərə mənzil kirayəsi ilə bağlı xərclər | 12,760,162.0 | | 12,760,162.0 |
| 1.12.4.4 | Sosial-iqtisadi islahatlar və digər tədbirlər üzrə xərclər | 296,050,831.0 | 283,027,283.0 | 13,023,548.0 |
| 1.12.4.4.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 16,335,000.0 | 16,335,000.0 | |
| 1.12.4.4.3 | Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının layihələrinin maliyyələşdirilməsi | 10,678,000.0 | 10,678,000.0 | |
| 1.12.4.4.4 | Əsas bölmələrə aid edilməyən xidmətlər üzrə büdcədənkənar xərclər | 80,120,500.0 | 80,120,500.0 | |
| 1.12.4.4.7 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 7,728,883.0 | 7,728,883.0 | |
| 1.12.4.4.10 | İşğaldan azad olunmuş ərazilərdə mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların saxlanılması | 8,985,000.0 | 8,985,000.0 | |
| 1.12.4.4.11 | Təhlükəsizlik, sosial-iqtisadi və digər tədbirlərin maliyyələşdirilməsi | 88,700,000.0 | 88,700,000.0 | |
| 1.12.4.4.12 | Əsas bölmələrə aid edilməyən xidmətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər | 2,300,000.0 | 2,300,000.0 | |
| 1.12.4.4.13 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması və digər tədbirlər | 13,023,548.0 | | 13,023,548.0 |

1.2. 1-ci hissədəki cədvələ aşağıdakı məzmunda 1.8.2.6-cı, 1.11.6.33-cü, 1.11.6.34-cü, 1.11.6.34.1-ci, 1.11.6.34.2-ci, 1.11.6.35 - 1.11.6.38-ci və 1.12.4.4.2.4-cü yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 1.8.2.6 | Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər | 4,000,000.0 | 4,000,000.0 | |
| 1.11.6.33 | "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxs (Laçın rayonunun işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin (şəhər, kənd, qəsəbə), inzibati binaların və digər infrastrukturların tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi) | 250,000,000.0 | 250,000,000.0 | |
| 1.11.6.34 | "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması | 170,000,000.0 | 170,000,000.0 | |
| 1.11.6.34.1 | İşğaldan azad edilmiş ərazilərdə elektrik təchizatı sistemləri üzrə görüləcək əsaslı və yenidənqurma işləri | 120,000,000.0 | 120,000,000.0 | |
| 1.11.6.34.2 | Respublika ərazisində elektrik paylayıcı şəbəkələrin yenidən qurulması | 50,000,000.0 | 50,000,000.0 | |
| 1.11.6.35 | "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (işğaldan azad edilmiş ərazilərdə kiçik su-elektrik stansiyalarının tikintisi və "Cəbrayıl Enerji Qovşağı" layihəsinin birinci mərhələsinin başa çatdırılması) | 90,000,000.0 | 90,000,000.0 | |
| 1.11.6.36 | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması (dəmir yolu infrastruktur layihələri üzrə) | 71,000,000.0 | 71,000,000.0 | |
| 1.11.6.37 | "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs | 50,000,000.0 | 50,000,000.0 | |
| 1.11.6.38 | Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı | 212,500,000.0 | 212,500,000.0 | |
| 1.12.4.4.2.4 | İşğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətdən istifadəyə görə 10 il müddətinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı göstərilməsi | 1,000,000.0 | 1,000,000.0 | |

1.3. 1-ci hissədəki cədvəlin 1.1.2.5-ci və 1.11.1.11-ci yarımbəndləri ləğv edilsin;

1.4. 2-ci hissədən "1.11.1.11-ci (Nəqliyyat və rabitə sahələri üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər)," sözləri çıxarılsın;

1.5. 3.3-cü bənddən "1.1.2.5-ci (Beynəlxalq münasibətlər sahəsi üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi, sosial ödənişlər və digər sosial tədbirlər)," sözləri çıxarılsın;

1.6. 3.6-cı bəndə "1.6.4.10-cu," sözlərindən sonra "1.8.2.6-cı," sözləri əlavə edilsin.

1.7. 7.7-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 7.8-ci bənd və 15-1-ci hissə əlavə edilsin:

"7.8. bu Fərmanın 1.11.6.38-ci (Azərbaycan Respublikasının həmtəsisçisi olduğu beynəlxalq investisiya və inkişaf fondlarının nizamnamə kapitalında Azərbaycan tərəfinin payı) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsünü və həmin bölgüdə dəyişiklikləri Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla həyata keçirsin.";

"15-1. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti bu Fərmanın 1.8.2.6-cı (Mənzil və kommunal təsərrüfatı sahəsi üzrə kommunal, kommunikasiya xidmətləri və digər tədbirlər) yarımbəndində nəzərdə tutulan vəsaitin bölgüsü ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.".

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 917-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRAR

№ 197

Bakı şəhəri, 17 iyun 2023-cü il

## "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası"nın təsdiq edilməsi barədə

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 198

QƏRAR

Bakı şəhəri, 17 iyun 2023-cü il

## "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi qaydası"nın təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının 1.1.13-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2490; 2019, № 5, maddələr 960, 966) ilə təsdiq edilmiş "Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3.1-ci, 1.3.5-ci və 2.1.7-ci yarımbəndlər ləğv edilsin;

2.2. 1.3.10-cu yarımbəndin əvvəlinə "qida və yem məhsullarına aid edilməyən" sözləri əlavə edilsin;

2.3. 1.3.11-ci yarımbənddə "qeyri-ərzaq" sözü "qeyri-qida" sözü ilə əvəz edilsin;

2.4. 1.3.12-ci yarımbənddə "1.3.1-1.3.11-ci" sözləri "1.3.2-1.3.4-cü və 1.3.6-1.3.11-ci" sözləri ilə əvəz edilsin;

2.5. 3.5-ci və 5.1-ci bəndlərin ikinci cümlələri çıxarılsın.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 198 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi qaydası" (bundan sonra - Qayda) "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 30.9-cu maddəsinə uyğun olaraq hazırlanmışdır və həmin Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi prosedurlarını müəyyən edir.

1.2. Bu Qayda mülkiyyət növündən asılı olmayaraq, bütün qida zənciri subyektlərinə (bundan sonra - qida subyektləri) şamil olunur, qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi, utilizasiyası və məhv edilməsi mərhələlərini əhatə edir.

1.3. Qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi ilə bağlı bu Qaydaya əsasən sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan plan üzrə (növbəti) və plandankənar (növbədənkənar) yoxlama tədbirləri "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

1.4. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.4.1. qida və yem məhsullarının geri çağırılması -** Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının istehlakçılardan götürülməsi, habelə bazarlardan və digər satış obyektlərindən çıxarılması üçün həyata keçirilən tədbir;

**1.4.2. qida və yem məhsullarının yığışdırılması -** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının dövriyyədən çıxarılması;

**1.4.3. qida və yem məhsullarının utilizasiyası -** qida təhlükəsizliyi sahəsində mövcud olan tələblərə cavab verməyən qida və yem məhsullarının ilkin nəzərdə tutulmuş təyinatından başqa bir təyinat üçün istifadə etmək məqsədilə texnoloji emalı və yaxud digər məqsədlərlə istifadəsi;

**1.4.4. qida və yem məhsullarının məhv edilməsi -** istifadəyə yararsız, təhlükəli qida və yem məhsullarının hər hansı formada istifadəsini mümkünsüz edən insan və heyvan həyatına və sağlamlığına, həmçinin ətraf mühitə zərərli təsirini istisna edən vəziyyətə gətirilməsi.

1.5. Bu Qaydanın 2.4-cü bəndində qeyd edilən geri çağırılma haqqında qərarın vaxtında icra edilməməsi dedikdə onun icrasından yayınma və ya qismən icra olunması, yaxud qərar ilə müəyyən olunmuş müddətdə icra olunmaması nəzərdə tutulur.

1.6. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

### 2. Qida və yem məhsullarının geri çağırılması və yığışdırılması

2.1. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsulları Agentliyin dövlət nəzarəti tədbirləri çərçivəsində qəbul etdiyi qərar və ya qida subyektlərinin öz təşəbbüsü əsasında həmin subyektlər tərəfindən istehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılmalı və Agentlik bu barədə dərhal məlumatlandırılmalıdır.

2.2. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan qida və yem məhsullarının Agentliyin tələbi əsasında geri çağırılmasına və ya yığışdırılmasına yalnız həmin məhsulların təhlükə riski Agentlik tərəfindən sübut olunduqda yol verilir.

2.3. Dövlət nəzarəti tədbirləri zamanı bazarda və digər satış obyektlərində Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsulları aşkar olunduğu təqdirdə, Agentlik aşağıdakı tədbirləri həyata keçirir:

2.3.1. yaranmış təhlükənin səbəblərini araşdırır və təhlükə ilə bağlı risk qiymətləndirilməsini həyata keçirir;

2.3.2. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının izlənilməsi ilə bağlı Qanunun 27-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş qaydada sənədlərin və məlumatların təqdim olunmasını qida subyektlərindən tələb edir;

2.3.3. bu Qaydanın 2.2-ci bəndi nəzərə alınmaqla, Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının ilkin istehsalının, istehsalının, emalının və ya onun ayrı-ayrı proseslərinin və (və ya) dövriyyəsinin dayandırılması və istehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılması ilə bağlı qərar qəbul etməklə bu Qaydanın 2.7.2-2.7.7-ci yarımbəndləri ilə müəyyən edilən tədbirlərin görülməsini qida subyektlərindən tələb edir;

2.3.4. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsulları, o cümlədən bu məhsullara cavabdeh olan qida subyektləri barədə məlumatları erkən xəbərdarlıq sistemləri vasitəsilə və qida məhsulları ilə bağlı Qanunun 10.3-cü maddəsinə uyğun olaraq açıq reyestrə daxil etməklə istehlakçıların məlumatlandırılmasını təmin edir;

2.3.5. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması barədə qərarın icrasına nəzarət edir;

2.3.6. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmaması və ya təhlükəlilik əlamətləri aşkar edildikdə məhsullardan nümunələrin götürülməsini və tədqiq (sınaq) üçün "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyaya təqdim olunmasını təmin edir.

2.4. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması haqqında Agentliyin qərarında məhsulların geri çağırılması üçün həmin məhsulların bazarda yerləşdirilməsi həcmindən asılı olaraq 30 (otuz) gündən artıq olmayan konkret müddət göstərilməli və qərar qida subyektləri tərəfindən vaxtında icra edilməlidir.

2.5. Geri çağırılma haqqında qərarın surəti onun qəbul edildiyi tarixin növbəti iş günündən gec olmayaraq, qida subyektinə sifarişli poçt göndərişi və subyektin şəxsi kabinetinə Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi (AQTİS) vasitəsilə göndərilir və yaxud qida subyektinin səlahiyyətli nümayəndəsinə imza etdirilməklə təqdim olunur.

2.6. Geri çağırılma haqqında qərarı icra edən qida subyektləri müəyyən olunmuş icra müddəti ərzində qərarın tam icrasının mümkün olmadığına dair əsaslandırılmış ərizə ilə icra müddətinin bitməsinə ən azı 1 (bir) iş günü qalmış Agentliyə müraciət etdikdə, Agentlik tərəfindən məsələyə baxılaraq icra müddətinin bir dəfə olmaqla əlavə 30 (otuz) günədək uzadılması haqqında qərar qəbul edilə bilər.

2.7. Qida subyektləri Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının istehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılması ilə bağlı Agentliyin qərarı və ya öz təşəbbüsü əsasında aşağıdakı tədbirləri həyata keçirirlər:

2.7.1. qida subyektlərini qida və yem məhsulları ilə təchiz edən subyektləri, həmçinin onların qida və yem məhsulları ilə təchiz etdiyi subyektləri dərhal müəyyənləşdirir və həmin subyektlər barədə məlumatları və Qanunun 27-ci maddəsinə uyğun olaraq müəyyən edilmiş məhsulların izlənilməsi ilə bağlı digər məlumatları və sənədləri dərhal Agentliyə təqdim edir;

2.7.2. qida və yem məhsulları paylanılmış bütün qida subyektlərini dövriyyənin dayandırılması ilə bağlı bildiriş göndərməklə məlumatlandırır, qida və yem məhsullarının dövriyyəsi ilə məşğul olan qida subyektləri isə həmin məhsulların dövriyyəsinin dayandırılmasını təmin edir;

2.7.3. bütün geri çağırılmış qida və yem məhsullarının qeydiyyatını aparır;

2.7.4. qida və yem məhsullarının geri çağırılması ilə bağlı görüləcək və görülmüş tədbirlər barədə aşağıdakı müddətlərdə Agentliyə yazılı məlumat verir:

1. qida və yem məhsulları Agentliyin qəbul etdiyi qərar əsasında geri çağırıldıqda görüləcək tədbirlər barədə Agentliyin qərarını əldə etdikdən sonra ən geci 3 (üç) iş günü ərzində, görülmüş tədbirlər barədə isə bu Qaydanın 2.4-cü bəndinə uyğun olaraq müəyyən edilmiş müddət bitdikdən dərhal sonra;

2. qida və yem məhsulları qida subyektinin öz təşəbbüsü əsasında geri çağırıldıqda görüləcək tədbirlər barədə dərhal, görülmüş tədbirlər barədə isə ən geci 30 (otuz) gün müddətində;

2.7.5. qida və yem məhsullarının Qanuna və qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun daşınmasını və saxlanmasını təmin edir;

2.7.6. təhlükəli qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı və ya onun ayrı-ayrı proseslərini dayandırır, təhlükənin yaranması səbəblərinin müəyyən edilməsi və aradan qaldırılması ilə bağlı Agentliklə razılaşdırmaqla normativ hüquqi aktların tələblərinə uyğun digər tədbirləri həyata keçirir;

2.7.7. Agentliyin qəbul etdiyi qərarlar əsasında məhsulların təkrar dövriyyəyə buraxılması, utilizasiyası və ya məhv edilməsi ilə bağlı işləri təşkil edir.

2.8. Agentlik tərəfindən geri çağırılma ilə bağlı qərarın icra vəziyyətinin yoxlanılması məqsədilə müvafiq məlumatların əldə edilməsi barədə qida subyektlərinə müraciətlər edilir və geri çağırılmış məhsulların olduğu yerlərə baxış keçirilir.

2.9. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması haqqında qərar qida subyektləri tərəfindən verilmiş müddətdə icra edilmədikdə həmin məhsulların istehlakçılardan, bazardan və digər satış obyektlərindən yığışdırılması ilə bağlı qərar qəbul edilir və həyata keçirilir.

2.10. Məhsulun yığışdırılması haqqında qərara uyğun olaraq yığışdırılması nəzərdə tutulan qida və yem məhsulları, onların miqdarı və çəkisi göstərilməklə 2 (iki) nüsxədə tərtib edilən Akt əsasında götürülür. Məhsulun utilizasiyası, məhv edilməsi və ya qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələblərinə uyğunlaşdırılması haqqında qərar verilənədək yığışdırılmış məhsullar miqdarı və çəkisi göstərilməklə, uçota alınaraq (rəsmiləşdirilərək) Agentliyin vəzifəli şəxsləri tərəfindən müəyyən edilən yerlərdə təhvil-təslim aktı əsasında saxlanmaya verilir.

2.11. İstehlakçılardan, bazardan və digər satış obyektlərindən geri çağırılmış və ya yığışdırılmış qida və yem məhsulları Agentlik tərəfindən həmin məhsullar haqqında qərar verilənədək, qida subyektləri tərəfindən məhsullar onların müvafiq saxlanılma şəraitinə uyğun və digər qida və yem məhsullarına təhlükə yaratmayan və istehlakçıların həmin məhsullarla təmasına imkan verməyən yerlərdə saxlanılmalıdır.

### 3. Geri çağırılmış və ya yığışdırılmış qida və yem məhsullarının təkrar dövriyyəyə buraxılması, utilizasiyası və məhv edilməsi

3.1. Geri çağırılmış və ya yığışdırılmış qida və yem məhsullarının sonradan birbaşa təyinatı üzrə təkrar dövriyyəyə buraxılması, utilizasiyası və ya məhv edilməsi barədə qərar həmin qida və yem məhsullarının tədqiqi (sınağı) əsasında Agentlik tərəfindən qəbul edilir.

3.2. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan geri çağırılmış və ya yığışdırılmış qida və yem məhsulları aparılmış tədqiqin (sınağın) nəticələrinə əsasən insan və heyvan həyatı və sağlamlığı üçün təhlükəsiz hesab edildikdə, Agentliyin qərarı əsasında qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunlaşdırılmaqla birbaşa təyinatı üzrə təkrar dövriyyəyə buraxılır.

3.3. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və aparılmış tədqiqin (sınağın) nəticəsinə əsasən insan və heyvan həyatı və sağlamlığı üçün təhlükəli hesab edilən qida və yem məhsullarının isə Agentlik tərəfindən utilizasiyası və ya məhv edilməsi barədə qərar qəbul edilir.

3.4. Həmin qərara əsasən utilizasiya və ya məhv edilən qida və yem məhsullarının həyat və sağlamlığa təhlükə yaratmaması üçün həmin məhsulların utilizasiya və ya məhv edilməsi prosesinə bu Qaydanın 3.7-ci və 3.12-ci bəndlərinə uyğun olaraq Agentlik nəzarət edir.

3.5. Utilizasiyası barədə qərar qəbul edilmiş qida və yem məhsulları ilkin nəzərdə tutulmuş təyinatından başqa bir təyinat üçün istifadə etmək məqsədilə texnoloji emala göndərilir və ya digər məqsədlər üçün istifadə olunur.

3.6. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və aparılmış tədqiqin (sınağın) nəticələrinə əsasən Agentlik tərəfindən insan və heyvan sağlamlığı üçün təhlükəli hesab edilən qida və yem məhsulları utilizasiya üçün yararlı olmadığı halda məhv edilir.

3.7. Texnoloji emal yolu ilə utilizasiya edilən qida və yem məhsullarının təkrar tədqiqi (sınağı) aparılır və Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olduğu halda onların dövriyyəsinə yol verilir, Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmadığı halda isə məhv edilir.

3.8. Qida və yem məhsullarının məhv edilməsi onların Agentliyin müvafiq qərarına əsasən və nümayəndələrinin iştirakı ilə qida subyektləri və ya onların səlahiyyətli nümayəndələri tərəfindən bu məqsədlər üçün ayrılmış xüsusi yerlərə atılması, basdırılması, yandırılması və ya ixtisaslaşmış müəssisələrə təhvil verilməsi yolu ilə həyata keçirilir.

3.9. Qida subyektləri və ya onların səlahiyyətli nümayəndələri məhsulların məhv edilməsini təmin etmədikdə, məhsullar Agentliyin nümayəndələri tərəfindən ixtisaslaşmış müəssisələrə təhvil verilməklə həmin nümayəndələrin iştirakı ilə məhv edilir və Agentlik tərəfindən 2 (iki) nüsxədən ibarət akt (məhvetmə aktı) tərtib olunaraq müvafiq qaydada rəsmiləşdirilir. Məhvetmə aktının 1 (bir) nüsxəsi ixtisaslaşmış müəssisələrdə, 1 (bir) nüsxəsi Agentlikdə saxlanılır.

3.10. Sanitar-epidemioloji salamatlıq baxımından təhlükə törədən qida və yem məhsulları zərərsizləşdirilərək məhv edilir.

3.11. Bu Qayda ilə tənzimlənməyən qida və yem məhsullarının məhv edilməsi ilə bağlı digər məsələlər "İstehsalat və məişət tullantıları haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq həyata keçirilir.

3.12. Qida və yem məhsullarının utilizasiyası və məhv edilməsi haqqında qərarların icrası barədə sənədlərin (Agentlik tərəfindən müəyyən edilmiş nümunəyə uyğun utilizasiya aktı, məhvetmə aktı, təhvil-təslim aktı) 1 (bir) nüsxəsi qida subyektləri tərəfindən dərhal Agentliyə təqdim edilir.

### 4. Qanunun tələblərinə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, tədqiqi (sınağı), saxlanması, daşınması, utilizasiyası və ya məhv edilməsi ilə bağlı xərclərin ödənilməsi

4.1. Qanuna uyğun olaraq müəyyən edilmiş tələblərə uyğun olmayan və (və ya) təhlükəli qida və yem məhsullarının geri çağırılması, yığışdırılması, tədqiqi (sınağı), saxlanması, daşınması, utilizasiyası və ya məhv edilməsi ilə bağlı xərclər həmin məhsullara cavabdeh olan qida subyektləri tərəfindən ödənilməlidir.

4.2. Bu Qaydanın 4.1-ci bəndində qeyd olunan xərcləri qida subyektləri ödəmədikdə xərclər Agentlik tərəfindən ödənilir. Agentlik belə xərclərin qida subyektləri tərəfindən əvəzinin ödənilməsi barədə qərar qəbul edir. Bu qərar qida subyektlərinə təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

4.3. Qida subyektləri xərclərin əvəzinin ödənilməsi barədə qərarı aldığı tarixdən ən geci 30 (otuz) gün müddətində xərclərin əvəzini dövlət büdcəsinə köçürür.

4.4. Xərclərin əvəzi bu Qaydanın 4.3-cü bəndində qeyd olunan müddətdə ödənilmədikdə, Agentlik ödəmənin təmin edilməsi barədə qida subyektlərinə yazılı xəbərdarlıq təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir.

4.5. Xəbərdarlığın verildiyi gündən sonrakı 10 (on) gün müddətində qida subyektləri tərəfindən ödəmə həyata keçirilmədikdə, Agentlik tələbin məcburi icraya yönəldilməsi haqqında qərar qəbul edir.

4.6. Tələbin məcburi icraya yönəldilməsi haqqında Agentliyin qərarının icrası "İcra haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.

### 5. Agentliyin qərarlarından və hərəkətlərindən (hərəkətsizliyindən) şikayət verilməsi qaydası

5.1. Agentliyin qərarlarından və hərəkətlərindən (hərəkətsiz-liyindən) şikayət inzibati və məhkəmə qaydasında verilə bilər.

5.2. Agentliyin qərarının icrasının dayandırılması barədə qərar qəbul edildiyi hallar istisna olmaqla, inzibati şikayətin verilməsi şikayət olunan qərarın icrasını dayandırmır.

# Milli Məclisin Sədri Sahibə Qafarova Avstriya Respublikasına rəsmi səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti iyunun 19-da Avstriya Respublikasının paytaxtı Vyana şəhərinə rəsmi səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinə Milli Məclisin komitə sədrləri Tahir Mirkişili (Avstriya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri), Siyavuş Novruzov, deputatlar Sahib Alıyev, Azər Kərimli, Elnur Allahverdiyev, parlament Aparatının rəhbəri Fərid Hacıyev və digər rəsmi şəxslər daxildirlər.

Vyana Beynəlxalq Hava Limanında nümayəndə heyətini Avstriya parlamentinin Protokol İdarəsinin rəisi Eva Russek, Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Vitse-spiker Adil Əliyev Gədəbəy rayonunda şəhid ailələri ilə görüşüb




Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev iyunun 19-da Gədəbəy rayonu Səbətkeçməz kəndində 44 günlük Vətən müharibəsinin şəhidləri Bəybala Əliyevin, Elvin Mustafayevin və Kənan Müzəffərlinin ailələri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, şəhidlərimizin ailə üzvləri böyütdükləri igid övladları barəsində fəxrlə söz açaraq qəhrəmanlarımızın uşaqlığından, keçdikləri döyüş yollarından danışıblar, onlarla bağlı xatirələrini dilə gətiriblər.

Qeyd edək ki, Vətən müharibəsində iştirak etmiş Bəybala Əliyev Murovdağ istiqamətində, Elvin Mustafayev və Kənan Müzəffərli Zəngilan rayonu uğrunda gedən döyüşlərdə ölkəmizin ərazi bütövlüyü uğrunda şücaətlə döyüşərək şəhidlik məqamına yüksəliblər.

Adil Əliyev şəhidlərimizin ailə üzvlərinə bildirib ki, müqəddəs amal yolunda - vətənin düşmən işğalından azad edilməsi uğrunda şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaq. O, şəhidlərimizin xatirəsini ehtiramla anaraq vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi rəşadətli ordumuzun tərkibində döyüşən şəhidlərimizin fədakarlıqları sayəsində torpaqlarımız düşmən işğalından azad olundu, ölkəmizin ərazi bütövlüyü təmin edildi. Vitse-spiker şəhidlərimizin ailələrinə səbir diləyərək onların dərdlərinə şərik olub, qayğıları və problemləri ilə maraqlanıb.

Şəhidlərimizin ailə üzvləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya şəhid ailələrinə və qazilərə göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*"Azərbaycan"*

# Səməd SEYİDOV: "Ermənilər beynəlxalq təşkilatlara yalvarmaqdansa, cəsarət tapıb regiondakı reallıqları qəbul etməlidirlər"

"Türkiyə ilə fəxr edirik! Türkiyə, səninlə fəxr edirik! Həqiqətən də, bu ölkə demokratiya, regionun sabitliyi, xalqının gələcəyi üçün böyük işlər görüb. Türkiyə bölgədə mövcud olan saysız təhdidləri dəf edə bilir. Çox sağ ol, Türkiyə!"

AZƏRTAC xəbər verir ki, bu fikirləri Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov qurumun yay sessiyasının ilk plenar iclasında deyib.

Dəstək əvəzinə tənqidlərin eşidilməsini qəribə adlandıran deputat bildirib: "Türkiyənin ən yaxın qonşusuyuq. Xüsusilə də seçkilərin ikinci turunun necə çətin, şəffaf və açıq təşkil edilməsinin şahidi olduq. Bu, Türkiyənin demokratiya istiqamətində düzgün irəlilədiyini aydın əks etdirir. Türkiyənin bu gün AŞPA-nın, beynəlxalq təşkilatların dəstəyinə ehtiyacı var. Türkiyə dağıdıcı zəlzələdən sonra da Avropa Şurası, xüsusilə də xalqı üçün bacardığını edib".

Azərbaycan nümayəndə heyətinin rəhbəri həmçinin Ermənistan təmsilçilərinin mövzudankənar müdaxilələrinə də cavab verib, onları gələcək haqqında düşünməyə çağırıb. "Bir-birimizə çox yaxınıq. Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında danışıqlar davam edir. Yaxın vaxtlarda danışıqların növbəti mərhələsi gözlənilir. Ancaq burada erməni həmkarlarımızın ritorikasını görürsünüz. Hələ də keçmiş terminologiyanı təkrarlayırlar. Onlar gələcək haqqında düşünməyə qadir deyillər. "Blokada" deyirlər, halbuki belə bir şey yoxdur, "genosid" dedikləri isə, ümumiyyətlə, mövcud deyil. Laçın dəhlizinin bağlı olmasına dair söylədikləri tamamilə səhv fikirdir. Provokasiyaya gəldikdə isə, Ermənistan tərəfindən çoxlu sayda təxribatlar törədilir. Azərbaycan təxribatdan uzaqdır. Təəssüf ki, Ermənistan tərəfi düşmənçiliyi davam etdirir. O, mövcud vəziyyəti anlamalı, hansı istiqamətdə irəliləmək haqqında düşünməlidir. Azərbaycanlılar və ermənilər birlikdə gələcək haqqında düşünməlidirlər. Ancaq onlar bunun əvəzinə beynəlxalq təşkilatlara yalvarır, Azərbaycanla bağlı yanlış məlumatlar təqdim etməyə çalışırlar. Bu, düzgün münasibət deyil. Belə davranışla sülhə nail olmaq çətindir. Azərbaycana, Qafqaza gəlin, əsl qafqazlı olun, kiçik bir cəsarət tapıb yeni reallıqları anlayın", - deyə S.Seyidov vurğulayıb.

# Üçtərəfli Bəyanat imzalandıqdan sonra 400-dən çox vətəndaşa aid meyit qalıqları aşkarlanıb

Torpaqlarımız işğaldan azad olunduqdan sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası aidiyyəti qurumlarla birlikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşların taleyinin müəyyən olunması istiqamətində axtarış və qazıntı işlərini davam etdirir.

Bu gün Ağdamda tapılan məzarlıq artıq aşkar edilmiş 8-ci kütləvi məzarlıqdır. Bütövlükdə üçtərəfli Bəyanat imzalandıqdan bu günə qədər təxminən 400-dən artıq vətəndaşa aid meyit qalıqları aşkarlanıb. Bu sahədə işlər davam etdirilir. Bunu AZƏRTACa açıqlamasında Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun rəhbərinin müavini Eldar Səmədov söyləyib.

"Bizdə olan məlumata görə, bu ərazidə bizim hərbçilərimizlə yanaşı, çoxsaylı mülki vətəndaşlar da qətlə yetirilib. Ərazi Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən təmizlənib, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun mütəxəssisləri tərəfindən qazıntı işləri aparılıb. Təxminən 4 nəfərə aid anatomik skelet müəyyən olunub. Sümük qalıqlarından görünür ki, əlavə insanlara aid sümüklər də var. Bu ərazidə qazıntı işləri davam etdiriləcək", - deyə Eldar Səmədov bildirib.

# Tatarıstanın Rəisi Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycan Respublikasında səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

❖ ❖ ❖

Azərbaycan Respublikasında səfərdə olan Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov iyunun 18-də Şəhidlər xiyabanını ziyarət edib. Tatarıstanın Rəisi Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla anıb, məzarları üzərinə tər çiçəklər düzüb.

Tatarıstanın Rəisi "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə ətraflı məlumat verilib.

# Bakıda Sabantuy tatar milli bayramı qeyd edilib

*Əvvəli 1-ci səh.*




Nazir Tatarıstanın Rəisi R.Minnixanovun azad olunmuş ərazilərə dünənki səfərinə toxunub: "Siz dünən Azərbaycan Respublikasının Prezidenti ilə birlikdə Zəngilan və Cəbrayılda oldunuz. Tatarıstan kompaniyalarının da azad olunmuş ərazilərin bərpasında bizə kömək edəcəyi heç də təsadüfi deyil. Siz iqtisadiyyata və təsərrüfata yaxşı bələd olan dövlət xadiminə xas olan çox qiymətli təcrübənizlə həyata keçiriləcək vəzifələrin və işlərin tam həcmini gördünüz. Heç bir şübhə yoxdur ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həm iqtisadiyyatın bərpası, həm də bizim qaçqınların və məcburi köçkünlərin tez bir zamanda öz doğma yurdlarına qayıtması üzrə vəzifələr yerinə yetiriləcək".

M.Cabbarov dəfələrlə Tatarıstana səfər etdiyini və bu respublikanın sosial-iqtisadi inkişafının nəticələri ilə əyani şəkildə tanış olduğunu qeyd edərək əlavə edib ki, Tatarıstan bir çox sosial-iqtisadi göstəricilərə görə Rusiya Federasiyasının subyektləri arasında liderdir.

Nazir çıxışının sonunda deyib: "Bugünkü tədbir də Azərbaycanda bütün ilboyu olduğu kimi, dövlətçiliyin və Azərbaycanın müasir simasının rəmzi olan Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev İli" çərçivəsində keçirilir. Heydər Əliyevin Mintimer Şaymiyev ilə xüsusi münasibətləri Azərbaycan ilə Tatarıstan arasında münasibətlərin təməlini qoyub. Onu da qeyd etmək istərdim ki, bu gün Siz İlham Heydər oğlu ilə birlikdə hamıya dostluq və qarşılıqlı əməkdaşlıq örnəyi nümayiş etdirirsiniz". Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu vurğulayıb ki, Tatarıstanın Rəisi Rüstəm Minnixanovun Azərbaycana səfəri ölkəmiz üçün çox mühüm hadisədir. O deyib: "Tatarıstanın Rəisi azad olunmuş ərazilərdə bizim tariximizin faciəli səhifələrinin canlı şahidi oldu. Biz Sizin dəstəyinizi hiss edirik. Buna görə Sizə minnətdaram. Bizim Tatarıstanla qardaşlığımız Rusiya ilə müttəfiqlik əlaqələrimizin tərkib hissəsidir. Çox şadıq ki, bu gün Tatarıstanda belə gözəl hadisələr baş verir. Elə bu yaxınlarda Azərbaycanın iqtisadiyyat naziri ilə birlikdə Kazana səfər etdik və tatar xalqının nailiyyətlərinin şahidi olduq, həmçinin sizin gözəl paytaxtınızı gördük".

P.Bülbüloğlu vurğulayıb ki, Azərbaycanda Sabantuyun bayram edilməsi ənənəvi xarakter daşıyır. O əlavə edib ki, bayram bu gün daha böyük məna kəsb edir, çünki Tatarıstanın Rəisinin iştirakı ilə keçirilir.

Rusiya Federasiyası Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov bildirib ki, gözəl və qardaş şəhər olan Bakıda olmaq onun üçün böyük şərəfdir: "Biz bu gün təkcə belə böyük bayram olan Sabantuyu qeyd etmirik, həm də çox gözəl insan Heydər Əliyevin xatirəsinə ehtiramımızı ifadə edirik. O, Sovet İttifaqının inkişafına böyük töhfə verib. Heydər Əliyev respublikamızın ən yaxın dostu və bax bu gözəl ölkənin böyük xidmətləri olan atası idi".

Sonra bir sıra şəxslərə Tatarıstan Respublikasının dövlət mükafatları təqdim edilib.

Qeyd edək ki, "Baursak evi" adlanan sahədə çayxana kimi stilizə edilmiş fotozona təqdim olunub. Orada iştirakçılar həmçinin tatar şirniyyatları, çay, keramika və "baursak" adlanan şirniyyatlara qonaq edilib. Bundan əlavə, burada taxta samovar şəklində çay stendlərində milli naxışların çəkilməsi üzrə ustad dərsi keçirilib.

"Milli müdriklik evi" adlanan sahədə tatar ictimai xadimlərinə və Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Mənəviyyat, mədəniyyət, maarifçilik" adlı sərgi ekspozisiyası hazırlanıb. Burada həmçinin soyağacının tərtibi, maqnitlərin, tatar ilahiyyatçısı Rizaetdin Fəxrəddinin sitatları olan nişanların, stolüstü molbertlərin üzərində tatar ornamentlərinin, tatar qadın başgeyimləri-kalfakların hazırlanması, milli naxışlarla rəsmlərin çəkilməsi üzrə tematik ustad dərslərində iştirak etmək mümkün olub.

Mədəni tədbirin proqramı çərçivəsində xalq sənəti yarmarkası və müxtəlif müsabiqələr də keçirilib.

Sabantuy iştirakçıları tatar güləşi, qaşıqla qaçış, torbada qaçış, boyunduruq ilə qaçış, pəhləvan çəkici, "Dost ailə" və s. idman-əyləncə oyunlarında da iştirak ediblər.

# OPEC-in baş katibi: "Azərbaycanla eyni mövqeyi bölüşməyimizdən məmnunuq"

Energetika naziri Pərviz Şahbazov Azərbaycana səfəri çərçivəsində Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Haysam Əl-Qays ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə OPEC ilə Azərbaycanın "Əməkdaşlıq Bəyannaməsi" çərçivəsində əməkdaşlığı, ölkəmizin qlobal neft bazarının tənzimlənməsində iştirakı, həmçinin tələb-təklif dinamikası ilə bağlı hazırkı vəziyyət və inkişaf tendensiyaları ilə bağlı məsələlər müzakirə edilib.

"OPEC plus" formatı təşəbbüsünün irəli sürülməsi və həyata keçirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi rolu yüksək qiymətləndirilib. Baş katib deyib: "Prezident İlham Əliyevin enerji təhlükəsizliyi, neft-qaz sənayesinin inkişafı, investisiyalar haqqında çox aydın baxışları birgə fəaliyyətimiz üçün yeni imkanlar açır. Azərbaycanla eyni mövqeyi bölüşməyimizdən məmnunuq".

Bildirilib ki, "OPEC plus" çərçivəsində əməkdaşlığın məqsədi iqtisadi inkişaf üçün dünyanı lazım olan enerji ilə təmin etməkdir. Bu isə bütün enerji növlərindən istifadə ilə mümkün ola bilər.

Energetika naziri Pərviz Şahbazov isə deyib ki, karbon emissiyalarının azaldılması ilə neft-qaz sektorunun inkişafı dayanıqlı enerji təhlükəsizliyi üçün vacibdir. Bu yanaşma əsasında Azərbaycan, OPEC, digər ölkə və təşkilatların iştirakı ilə daha geniş platformada əməkdaşlığa ehtiyac var və biz neft bazarının sabitləşdirilməsi ilə bağlı səylərimizi bu istiqamətdə də inkişaf etdirməliyik.

Söhbət zamanı Azərbaycanla OPEC Katibliyi əlaqələrinin dərinləşdirilməsi, "OPEC plus" formatında əməkdaşlığın təşkilata üzv ölkələrlə Azərbaycanın "yaşıl enerji" sahəsində tərəfdaşlığına verdiyi töhfələrdən də bəhs edilib.

# Antropoloq: "Ağdamda tapılan kütləvi məzarlıqda azı 4 insanın qalıqları üzə çıxıb"

Ağdam rayonunun Sarıcalı kəndi ərazisində avtomobil yolunun kənarında aşkarlanan kütləvi məzarlıqda azı 4 insanın qalıqları aşkar olunub.

Bunu AZƏRTAC-a Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, antropoloq Vüsal Həsənov deyib. O bildirib ki, 50 kvadratmetr ərazidə dərinləşdirmə işləri aparılıb, təxminən 40-50 santimetr dərinlikdə 3 fərqli nöqtədə insan qalıqları aşkar olunub: "Bir nöqtədə ən azı 2, digər nöqtələrdə isə hər birində 1 nəfər olmaqla, azı 4 insan qalığı aşkara çıxarıldı. Dəfn əlamətləri yoxdur. İnsanlar öldürüldükdən sonra yol kənarındakı çökək əraziyə atılıb. Zamanla sümüklərdə dəyişikliklər baş verib. Ola bilər ki, antropogen təsirdən, ya da heyvanlar tərəfindən anatomik ardıcıllıq pozulub. Sümüklər natamamdır, bəzi hissələri aşkar olunmayıb".

# Azərbaycanda ilk Hava Şarları Festivalı keçirilib

İyunun 17-18-də Azərbaycanda ilk Hava Şarları Festivalı (Balloon Festival) keçirilib.



Festival zamanı qonaqlar üçün əyləncə proqramları, müxtəlif mövzularda ustad dərsləri də təşkil olunub.

Əvvəlcə layihənin təqdimatı keçirilib, hava şarları, uçuş barədə məlumat verilib.

İyunun 17-də nümayiş uçuşu, iyunun 18-də səhər saatlarında isə qonaqların iştirakı ilə festivalın əsas uçuşları olub.

AZƏRTAC xəbər verir ki, Şamaxıda festivalın rəsmi açılışı mərasimində çıxış edən Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonun artıq açıq hava festivalları şəhərinə çevrildiyini bildirib.

"Şamaxı ilk dəfə üzümçülük və şərabçılıq festivalına evsahibliyi etmişdir.





İndi isə Azərbaycanda ilk dəfə olaraq Hava Şarları Festivalının Şamaxıda olması bizi sevindirir. Bu da turizm sektorunda inkişafın bir göstəricisi hesab oluna bilər. Şamaxı hazırda turizm sektorunun inkişafı ilə fərqlənir", - deyə T.Məmmədov vurğulayıb.

Sonra çıxış edən "EZONE" şirkətinin nümayəndəsi Salman Rəsulov bildirib ki, hava şarı gəzintiləri dünyanın hər yerində böyük maraqla qarşılanır. Hava Şarları Festivalını keçirməkdə əsas məqsəd turizmin inkişafına töhfə verməkdir.

O əlavə edib ki, festivalla bağlı təhlükəsizlik tədbirləri ən prioritet məsələlərdən biridir. Tezliklə kommersiya uçuşlarının həyata keçirilməsi üzərində iş gedir. Təşkilat komitəsinin məlumatına görə, uçuşların gələcəkdə də davam edib-etməməsi və kommersiya uçuşlarının qarşıdakı illərdə həyata keçirilməsi məsələsi layihəyə maraqdan asılı olacaq. Qeyd edilib ki, uçuşlar peşəkar xarici pilotlar tərəfindən həyata keçirilir.

Türkiyəli mütəxəssis Halis Aydoğan festivalda iştirak etməkdən qürur duyduğunu bildirib. Deyib ki, Şamaxının gələcəkdə hava şarlarının uçuşu üçün uyğun məkana çevriləcəyinə inanır. Turizmin inkişafı baxımından Hava Şarları Festivalı ilə Şamaxıda ilk addımların atıldığı diqqətə çatdırılıb.

Festival çərçivəsində jurnalistlərin suallarını cavablandıran Almaniyanın ölkəmizdəki səfiri Ralf Horlemann Azərbaycanı Hava Şarları Festivalına evsahibliyi etdiyinə görə təbrik edib. "Bu tədbir çox gözəl fürsətdir ki, Azərbaycanın bütün gözəlliyini dünyaya nümayiş etdirsin. Şamaxıda bu gün hava çox gözəldir və gələn hər kəs çox əylənir. Bir daha təbriklərimi çatdırır və festivala uğurlar arzu edirəm", - deyə Ralf Horlemann vurğulayıb.

Festival barədə təəssüratlarını jurnalistlərlə bölüşən İsrailin Azərbaycandakı səfiri Corc Dik deyib ki, bu gün Azərbaycan üçün çox xoş gündür. Çünki Azərbaycan belə möhtəşəm tədbirə evsahibliyi edir, ilk dəfə Hava Şarları Festivalı keçirir.

"Burada valideynləri, uşaqları və gəncləri görürəm. Festivalda müxtəlif yaşlarda və bütün millətlərdən insanlar iştirak edirlər. Mən bu tədbirə dəstək göstərən Heydər Əliyev Fonduna və digər qurumlara təşəkkürümü bildirirəm", - deyə diplomat vurğulayıb.







Qeyd edək ki, layihəyə dəstəyi Azərbaycan Dövlət Turizm Agentliyi, Şamaxı Rayon İcra Hakimiyyəti, Dövlət Mülki Aviasiya Agentliyi, "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) və Heydər Əliyev Fondu göstərib.

Azərbaycandakı hava şarları layihəsi üzrə hazırlıqlar iki il davam edib. Festivaldakı hava şarları Böyük Britaniya və Türkiyədə hazırlanıb, öz maraqlı dizaynları ilə diqqətləri çəkib.

Festival çərçivəsində tanınmış ifaçıların iştirakı ilə konsert proqramı da təşkil edilib. Xalq artistləri Faiq Ağayev, Miri Yusif, Əməkdar artist Lalə Məmmədova, Dilarə Kazımova, Eldar və Nigar, həmçinin digərləri izləyicilərin qarşısına hit mahnılarla çıxıblar.

Festivalın əyləncə proqramına həm uşaqlar, həm də böyüklər üçün müxtəlif mövzulara dair ustad dərsləri daxil edilib. İştirakçılar gildən fiqurların hazırlanması, rəngkarlıq, kukla teatrı, stolüstü oyunlar, toxuculuq və digər sahələr üzrə ustad dərslərində iştirak imkanı qazanıblar. Beləliklə, qonaqlar hava şarlarının uçuşunu izləməklə yanaşı, həm də maraqlı və əyləncəli həftəsonu keçiriblər.

Festivala Şamaxı və qonşu rayonlardan vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin övladları da dəvət alıblar. Onlar festival ərazisində təşkil olunan əyləncəli proqramlarda iştirak edib, hava şarlarının uçuşunu izləyiblər. Qəhrəman şəhidlərimizin övladları üçün nahar təşkil edilib, hər birinə hədiyyələr təqdim olunub.

Hava şarlarında uçuş unudulmaz təəssürat üçün gözəl fürsətlərdən biridir. Hər il dünyanın müxtəlif ölkələrində hava şarları festivalları keçirilir və turistlər məhz bu uçuşların aparıldığı yerlərə səfər edirlər.

Məşhur Hava Şarları Festivalı sırasında olan və ABŞ-nin Albukerke şəhərində keçirilən festival ilk dəfə 1972-ci ildə baş tutub. Bu tədbir minlərlə iştirakçını cəlb edib və ABŞ-də ən böyük əyləncələrdən birinə çevrilib. Hava şarları ilə uçuşlar hazırda Avstraliyanın Kanberra, Böyük Britaniyanın Bristol, İsveçrənin Şato-Do, İspaniyanın İgualada, Kanadanın Kvebek, Rusiyanın Velikiye Luki, Türkiyənin Kapadokiya şəhərlərində və digər yerlərdə təşkil edilir.







*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyun tarixli 197 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması QAYDASI

### 1. Ümumi müddəalar

1.1. "Qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların açıq reyestrinin aparılması qaydası" (bundan sonra - Qayda) "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 10.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən halların istifadəçilər üçün açıq reyestrinin (bundan sonra - Reyestr) aparılması qaydasını müəyyən edir.

1.2. Reyestr Qanunun 10.2.2-ci maddəsində nəzərdə tutulmuş qida məhsullarında aşkar korlanma, dağılma, çürümə əlamətlərinin olması hallarına şamil edilmir.

1.3. Reyestr insanların həyat və sağlamlığının, habelə istehlakçıların hüquqlarının qorunması üçün qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən hallar barədə məlumatların vahid mənbədə toplanması, emalı, axtarışı, təhlili, ötürülməsi və istifadəçilərin məlumatlandırılması məqsədilə aparılır.

1.4. Reyestrdə olan məlumatlar istifadəçilər üçün açıqdır, ondan istifadə və məlumatların əldə edilməsi ödənişsizdir. Reyestr Azərbaycan Respublikasının mülkiyyətidir və onun saxlanılması Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

1.5. Reyestrin formalaşdırılmasına, aparılmasına və arxivləşdirilməsinə dair bu Qayda ilə tənzimlənməyən digər məsələlər, o cümlədən Reyestrin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə digər dövlət informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiyası Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq tənzimlənir.

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. **Reyestr** - qida məhsullarının təhlükəli hesab edilməsinə əsas verən hallar barədə məlumat toplusundan ibarət informasiya ehtiyatı;

2.1.2. **istifadəçi** - normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada Reyestrdən informasiya əldə edən və ya informasiyadan istifadə edən dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, habelə hüquqi və fiziki şəxslər;

2.1.3. **sahib** - normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada Reyestr üzərində sahiblik və istifadə hüququnu həyata keçirən, habelə Reyestrin aparılmasını təmin edən Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra - Agentlik).

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ-hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

2.3. Reyestrin sahibi eyni zamanda onun operatoru funksiyalarını həyata keçirir.

### 3. Reyestrin fəaliyyət prinsipləri

3.1. Reyestrin fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın 2.1-ci bəndində qeyd edilən prinsiplər nəzərə alınmaqla aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

3.1.1. **istifadə rahatlığı** - Reyestrdən istifadənin və məlumat mübadiləsinin əlavə əməliyyatlar aparılmadan təmin edilməsi;

3.1.2. **funksionallıq və davamlı inkişaf** - Reyestrin inkişaf etdirilməsi imkanını təmin edən proqram-texniki komponentlərin olması və ən son texnologiyalardan istifadə edilməklə Reyestrin daim təkmilləşdirilməsi;

3.1.3. **operativlik** - Reyestrdə məlumatların yaradılması, toplanılması, işlənilməsi, saxlanılması və axtarışı proseslərinin sürətli şəkildə həyata keçirilməsi;

3.1.4. **sərbəstlik** - Reyestrin fəaliyyətinin Reyestrdə aparılan təşkilati, inzibati, texniki və digər dəyişikliklərdən asılı olmaması;

3.1.5. **şəffaflıq** - Reyestrin fəaliyyətində aşkarlığın və hesabatlılığın təmin edilməsi.

### 4. Reyestrin strukturu və reyestrə daxil edilən məlumatlar

4.1. Reyestr Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi İnformasiya Sistemi (bundan sonra - AQTİS) vasitəsilə aparılır, onun texniki-texnoloji infrastrukturuna uyğun şəkildə formalaşır və aşağıdakı modullardan ibarətdir:

4.1.1. "məlumatların daxil edilməsi" modulu;

4.1.2. "məlumatlara baxış" modulu;

4.1.3. "hesabatlar" modulu.

4.2. Reyestrin strukturuna daxil olan modullar vasitəsilə aşağıdakılar təmin edilir:

4.2.1. "məlumatların daxil edilməsi" modulu vasitəsilə bu Qaydanın 4.3-cü bəndində qeyd olunan məlumatların daxil edilməsi;

4.2.2. "məlumatlara baxış" modulu vasitəsilə Reyestrdə toplanılmış məlumatların axtarışı və məlumatlara baxılması;

4.2.3. "hesabatlar modulu" vasitəsilə müxtəlif parametrlərə görə hesabatların tərtib edilməsi.

4.3. Qanunun 10.2-ci maddəsində qeyd edilən hallara uyğun olaraq Reyestrə aşağıdakı məlumatlar daxil edilir:

4.3.1. qida məhsulunun xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının kodu;

4.3.2. qida məhsulunun adı;

4.3.3. qısamüddətli və ya uzunmüddətli (kumulyativ toksik təsiri daxil olmaqla) zərərin təsvirinə və sübutuna dair məlumat;

4.3.4. qida təhlükəsizliyi göstəricisi;

4.3.5. qida təhlükəsizliyi göstəricisinin qida məhsulunu təhlükəli edən həddi;

4.3.6. qadağan olunmuş inqrediyentin adı;

4.3.7. istinad edilən texniki normativ-hüquqi aktların rekvizitləri;

4.3.8. təhlükəli qida məhsulları barədə məlumat.

4.4. Reyestrə daxil edilən məlumatlar istinad üçün rəsmi mənbə hesab olunur.

### 5. Reyestrin aparılması

5.1. Reyestrin formalaşdırılması, aparılması, istifadəsi və orada saxlanılan məlumatların mühafizəsi elektron texnologiyalar əsasında həyata keçirilir.

5.2. Bu Qaydanın 4.3-cü bəndində nəzərdə tutulmuş qida məhsullarının təhlükəli halları barədə məlumatlar elmi sübutlar və qida təhlükəsizliyi sahəsində texniki normativ-hüquqi aktlar əsasında sahib tərəfindən Reyestrə daxil edilir və daim yenilənir.

5.3. Qanunun 10.2-ci maddəsində qeyd edilən hallara uyğun olaraq əldə edilən yeni məlumatlar (qida məhsullarında aşkar korlanma, dağılma, çürümə əlamətlərinin olması halları istisna olmaqla) dərhal sahib tərəfindən Reyestrə daxil edilir.

5.4. Agentlik Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Reyestrin "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə Reyestrin və Reyestrdə saxlanılan məlumatların təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görür.

5.5. Reyestrin fəaliyyətinin və məlumat mübadiləsinin təkmilləşdirilməsi, habelə Reyestrdə yaranan nasazlıqların aradan qaldırılması məqsədilə Reyestrin sahibi təxirəsalınmaz tədbirlər görür.

5.6. Reyestrin texniki parametrlərində istifadəçilər tərəfindən Reyestrin fəaliyyəti ilə bağlı sahibə təkliflər verilməsi imkanı nəzərdə tutulur.

### 6. Reyestrdən istifadə

6.1. Reyestrdən məlumatın kağız daşıyıcıda əldə edilməsi ilə bağlı informasiya əldə etməyə dair sorğular "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icra edilir.

6.2. Reyestrdə müxtəlif meyarlar əsasında axtarış aparılması və məlumatların əldə edilməsi üçün qeydiyyatdan keçmək tələb olunmur.

6.3. Reyestrə qeyri-qanuni daxilolma və ya müdaxilə həyata keçirildikdə, sahib qeyd edilən əməllərə yol verən istifadəçinin informasiya sisteminə girişini məhdudlaşdırır.

**Prezident seçkilərində növbəti dəfə xalqın etimadını qazanaraq Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmiş Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri etməsi ölkələrimiz arasında dostluq və qardaşlığın daha bir təzahürü oldu. Bu səfər proqramı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin başqanı Rəcəb Tayyib Ərdoğanın səsləndirdikləri bəyanatlar, gələcəyə strateji baxışı əks etdirən fikirlər tarixə yazıldı.**



# Ortaq keçmişdən böyük gələcəyə

Adətən, ölkələr arasında həyata keçirilən səfərlərin təsnifatında, ilk sırada ali səviyyə xarakteri daşıyan dövlət səfərləri dayanır. Ondan sonra rəsmi, işgüzar səfərlər gəlir. Hamısında da əsas məqsəd dövlətlərarası münasibətlərin ən yüksək həddini, ölkələrarası dostluq və əməkdaşlığın ən ali səviyyəsini təsbit etməkdir. Bu baxımdan ikitərəfli əlaqələrin hazırkı yüksək səviyyəsinin məntiqi nəticəsidir ki, Prezident Rəcəb Tayyib Ərdoğanın ölkəmizə dövlət səfəri Azərbaycanın Türkiyə üçün nə qədər böyük əhəmiyyət daşıdığını bir daha aydın göstərdi.

### "Bir millət, iki dövlət"

Bu iki ölkəni bir-birinə qədim tarixi köklər, ortaq milli mənsubiyyət, dil, din, mədəniyyət bağlayır. Ötən əsrin 80-ci illərinin sonlarından dövlət müstəqilliyimizə doğru proseslərin başlandığı ilk vaxtlardan bu günə qədər ölkələrimiz bir-birinin yanındadır. Bir zamanlar Mustafa Kamal Atatürkün qeyd etdiyi kimi, Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri kədəridir. Son onilliklərdə bu iki ölkə arasındakı əlaqələrin daha da güclənməsi, dövlətlərarası diplomatik münasibətləri də aşaraq, artıq fərdlər arasında doğma münasibətlərə çevrilməsi, gediş-gəlişin müstəsna dərəcədə artması, Azərbaycan və Türkiyə insanlarının qaynayıb-qarışması, getdikcə ümumi millət anlayışının formalaşması Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü "Bir millət, iki dövlət" tezisinin özünü doğrultmasıdır.

Bu gün bütün dünyada bir-birinə Türkiyə və Azərbaycan qədər yaxın olan başqa iki dövlət təsəvvür etmək mümkün deyil. Artıq beynəlxalq münasibətlərin hər bir iştirakçısı görür ki, Türkiyənin olduğu bütün tribunalarda Azərbaycan var. Eyni zamanda Azərbaycanın olduğu bütün tribunalardan həm də Türkiyənin səsi gəlir. Hər iki ölkə həm daxili məsələlərdə, həm beynəlxalq arenada yüksək həmrəylik nümayiş etdirir, bir-birinin dövlətçilik maraqlarına dəstək verir.

Əlbəttə, tarixi bağlılıqlar, ortaq keçmiş burada mühüm rol oynayır. Amma etiraf edək ki, müasir dünyamızda bu amillər ölkələrin bir-birinə Türkiyə və Azərbaycan qədər yaxın olmasından ötrü kifayət deyil. Eyni tarixi köklərə, milli mənsubiyyətə malik olub müəyyən siyasi, iqtisadi maraqlara görə bir-birinə düşmən münasibət bəsləyən ölkələr kifayət qədərdir. Türkiyə və Azərbaycan arasındakı əlaqələrin bu qədər yaxın olmasında isə ölkə rəhbərlərinin dostluq, qardaşlıq münasibətlərinin də çox böyük rolu var.

Güvən, qarşılıqlı etibar siyasətdə də yüksək qiymətləndirilən dəyərdir. Amma hər siyasət adamının bunları qorumağı bacarmadığı da bəlli faktlardır. Azərbaycan və Türkiyə liderləri isə öz dəyərlərinə sadiqdirlər. Bu güvən, etibar illərin çətin sınaqlarından çıxıb. Dövlət rəhbərlərimiz həm də Azərbaycan və Türkiyənin getdikcə güclənən bağlılıqlarına sədaqət göstərirlər. Qlobal proseslərə, regionun gələcəyinə baxışda mövqelərin üst-üstə düşməsi, gələcəklə bağlı aydın təsəvvürlərin, strateji niyyətlərin eyniyyəti, atılan addımların birgəliyi bu səmimi münasibətlərə mühüm töhfələr verir. Həm Azərbaycan, həm Türkiyə tarixən də, bu gün də türk dünyasının əsas mərkəzlərindəndir. Türk dünyasının iqtisadi, siyasi, mədəni nəbzi hər zaman bu coğrafiyalarda döyünüb.

### Sülhün, təhlükəsizliyin və rifahın təminatçıları

Tarixi zəfərimizlə başa çatmış 44 günlük Vətən müharibəsinin ilk dəqiqələrindən sonuna qədər Türkiyə Cümhuriyyəti, şəxsən Prezident Rəcəb Tayyib Ərdoğan siyasi dəstəyi ilə Azərbaycanın yanında oldu, səsləndirdiyi bəyanatlarla dünyaya ardıcıl mesajlar verdi. Haqq savaşımızı dayandırmaq, torpaqlarımızın 20 faizini illərdir işğal altında saxlayan, milyonlarla soydaşımızı yurdundan didərgin salan Ermənistana qahmar çıxmaq üçün üstümüzə yerbəyerdən təhdidlər yönəldən böyük güclərə xatırlatdı ki, bu davada Türkiyə Azərbaycanı tək qoymayacaq.

Biz bu zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü, hər qarış torpaq uğrunda canından keçən əsgər və zabitlərimizin fədakarlığı sayəsində qazandıq. Bununla belə, beynəlxalq təzyiqlər qarşısında duruş gətirməyimizdə, diplomatik səngərlərdəki qələbələrimizdə, bütün dünyanın tarixi zəfərimizi qəbul etmək məcburiyyətində qalmasında Türkiyə amilinin də çox mühüm rolu oldu.

Həmin vaxtlarda Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın dəstək bəyanatları, qardaş ölkə rəsmilərinin müharibənin gedişində Azərbaycana ardıcıl səfərləri, prosesi diqqətdə saxlamaları cəmiyyətimizdə mənəvi ruhu daha da yüksəltdi, bizi qələbəyə yaxınlaşdırdı, eləcə də hadisələrin gedişatına kənar məkrli qüvvələrin müdaxiləsini əngəllədi. Bu mənada, İkinci Qarabağ müharibəsindəki zəfər təkcə Azərbaycanın deyil, ümumilikdə Türkiyə və bütün türk dünyasının tarixi qələbəsidir. Bu zəfər tarixdə hər zaman belə xatırlanacaq.

Bu möhtəşəm qələbə ilə Azərbaycan və Türkiyə regionda yeni tarixi reallığın əsasını qoydular. Bölgədə gələcək sülhün, təhlükəsizliyin və rifahın əsas təminatçılarının olduğunu bütün dünyaya göstərdilər. Belə bir status, mövqe iki qardaş ölkənin illərdir ki, regionun inkişafına verdikləri töhfələrə əsaslanır. Azərbaycan və Türkiyənin təşəbbüsü, yaxından iştirakı ilə bu gün icra olunan irimiqyaslı layihələr böyük bir coğrafiyada irəliləyişlərə, qarşılıqlı kommunikasiyalara təkan verir. Dayanıqlı inkişaf mühiti yaradır. Bu mühitdən Azərbaycanla Türkiyənin sülh və tərəqqi arzusuna qoşulan, bu ali niyyətə dəstək verən hər kəs faydalana bilər. İki ölkənin bütün region ölkələrinə əsas çağırışı da məhz budur. Qüvvələri, imkanları bir araya gətirib maneələri birgə aşmaq, problemləri birgə yoluna qoymaq, yaşadığımız coğrafiyanı dünyanın inkişaf məkanına çevirməkdir.

### Strateji müttəfiqlər

Vətən müharibəsindəki zəfərimizdən az sonra imzalanmış Şuşa Bəyannaməsi ilə Azərbaycan və Türkiyə bu niyyətə daha da yaxınlaşdı. Qarşıya qoyulmuş böyük hədəflərə doğru tarixi yolumuzda iki ölkənin əlaqəsi strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Şuşa Bəyannaməsi Azərbaycanın müstəqilliyi dövründə qardaş ölkələr arasında imzalanan, bir çox istiqamətlərdə strateji müttəfiqliyi, eləcə də təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini əhatə edən çox mühüm sənəddir. Bəyannamə təkcə Azərbaycan və Türkiyə münasibətlərinin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etmir. Bu sənəd ümumilikdə regionun gələcəyi üçün mühüm tarixi önəm daşıyır. İki qardaş ölkə Qarabağın tacı olan Şuşada belə bir mühüm bəyannaməyə imza atmaqla regionda yeni geosiyasi və geoiqtisadi münasibətlər üçün mühüm bir başlanğıc yaratmış oldu.

Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Şuşa Bəyannaməsi tarixi bir anlaşmadır. Bəyannamənin Şuşada imzalanması isə xüsusilə rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacı, Vətən müharibəsindəki tarixi qələbəmizin simvoludur. Cənab Rəcəb Tayyib Ərdoğan Bakıda bir daha bəyan etdi ki, Türkiyə və Azərbaycan Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəlmiş əlaqələri bütün sahələrdə inkişaf etdirməkdə, bəyannamənin müddəalarını bundan sonra da uğurla həyata keçirməkdə qərarlıdır və bu məsələdə heç bir güzəşt olmayacaq. Bu bəyanat qədər mühüm olan Şuşada Türkiyənin baş konsulluğunun açılması qərarı da başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesajdır.

Prezident Rəcəb Tayyib Ərdoğanın qələbəsi Türkiyə-Azərbaycan münasibətləri qarşısında daha geniş üfüqlər açır, əməkdaşlığımızın bütün sahələrdə konkret proqramlar əsasında inkişafına əlverişli şərait yaradır. Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış etmək əzmindədir. İki qardaş ölkənin bu vahid mövqeyi bölgəmizin inkişafı, sabitliyi və təhlükəsizliyi baxımından çox əhəmiyyətlidir.

Müasir dünyamızda güc amilinin mühüm rolunu, beynəlxalq hüququn çox zaman çalışmadığını nəzərə alaraq Azərbaycan ordu quruculuğuna post-müharibə dövründə də xüsusi diqqət yetirir və müzəffər ordumuz Türkiyə modeli əsasında inkişaf etdirilir. Qardaş ölkə ilə müdafiə və müdafiə sənayesi sahələrində gələcək əməkdaşlıq planları da kifayət qədər genişdir. Bu planların tərkib hissəsi kimi, 2023-cü ildə 16 birgə hərbi təlim keçiriləcək və onlardan 6-sı artıq keçirilib.

Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi də sürətlə artır. Bu həcmin artıq 6 milyard dollarlıq rəqəmlə ifadə olunması Azərbaycan və Türkiyənin ticarət əlaqələrinin miqyası haqqında aydın təsəvvür yaradır. Ölkələrimiz xüsusilə enerji sahəsində geniş əlaqələrə malikdir. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı ildən-ilə artır. Azərbaycan qazının Türkiyə ərazisindən Avropa ölkələrinə ixracı da yüksəlməkdədir. İki qardaş ölkə bərpaolunan enerji növləri, neft-kimya məhsullarının istehsalı, elektrik enerjisi hasilatı üzrə əməkdaşlıq sahəsində də böyük uğurlara imza atır.

44 günlük Vətən müharibəsinə illərlə davam edən hazırlıqlarda, müharibənin gedişində, zəfərimizdən sonra Azərbaycanın tarixi qələbəsinin bütün dünyada qəbul olunması üçün görülən işlərdə, işğalçı Ermənistanla informasiya müharibəsində olduğu kimi, Türkiyə bu gün azad yurdlarımızın bərpası və yenidənqurulması prosesində də Azərbaycanın yanındadır. Türkiyə şirkətləri Qarabağda, Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işlərində yaxından iştirak edir. Bu şirkətlərin təcrübəsi, imkanları azad yurdlarımızda zəruri infrastrukturun qurulmasında, illərlə işğal altında saxlanmış torpaqlarımızın onilliklərdən sonra inkişaf axarına qovuşmasında özünəməxsus rol oynayır. Qardaş Türkiyə bu məsələdə də Azərbaycanla həmrəylik göstərir. Türkiyə ilə Azərbaycan quruculuq siyasəti ilə bölgədə təhlükəsizliyi, sülh və inkişaf mühitini bərqərar edir, xalqların birgə, rahat yaşaması üçün mühit formalaşdırır.

Dövlət rəhbərimizin də bəyan etdiyi kimi, indiki geosiyasi şəraitdə Orta dəhlizin önəmi daha da artmaqdadır. Azərbaycan ərazisindən, Xəzər dənizi vasitəsilə daşınan yüklərin həcmi genişlənir və zaman keçdikcə bu həcmin daha da artacağı gözlənilir. Bu prosesə paralel olaraq Azərbaycan regionun əhəmiyyətli nəqliyyat-logistika mərkəzi kimi infrastruktur imkanlarını inkişaf etdirir. Açılması zəruri olan Zəngəzur dəhlizi bu istiqamətdə birgə səylərə böyük təkan verəcək. Bu dəhliz bütün ölkələr üçün yeni imkanlar yaradacaq və bölgədə əməkdaşlığa münbit şərait formalaşdıracaq.

### Sarsılmaz münasibətlər

Bu ilin fevralında Türkiyənin müxtəlif bölgələrində baş vermiş zəlzələ zamanı da Azərbaycan-Türkiyə qardaşlığı zamanın daha bir sınağından mətanətlə çıxdı. Azərbaycan da zəlzələnin fəsadlarını aradan qaldırmaqdan ötrü bütün imkanlarını səfərbərliyə aldı, qardaş ölkəyə ilk və ən çox kömək göndərən ölkələrdən oldu. Həm də dəstək təkcə maddi və humanitar sferalarla məhdudlaşmayıb, siyasi müstəvidə də təzahür etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkiyənin paytaxtı Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının fövqəladə Zirvə görüşünün keçirilməsi, Türkiyədəki zəlzələyə qədər Şuşada planlaşdırılmış görüşün təbii fəlakətdən sonra dövlət rəhbərimizin təklifi əsasında Türkiyə ilə həmrəylik nümayişi kimi məhz bu ölkənin paytaxtında təşkili buna bir nümunə oldu. Bununla Azərbaycan-Türkiyə qardaşlığının gücü, türk dünyasındakı birgəlik ruhu sərgiləndi.

Qədirbilən xalqımızın Türkiyənin dövlət rəhbəri Rəcəb Tayyib Ərdoğanın şəxsiyyətinə çox böyük sevgi və ehtiramı var. Bu münasibət Türkiyə Prezidentinin haqq işimizə dəstəyindən, Azərbaycana sevgisindən, zəmanəsinin ən parlaq liderlərindən biri kimi yüksək xarizmasından irəli gəlir. Prezident seçkisində də Azərbaycan ictimaiyyətinin Rəcəb Tayyib Ərdoğana mənəvi dəstəyi birmənalı idi. Prezident seçkisinin birinci turundan sonra cənab İlham Əliyevin Rəcəb Tayyib Ərdoğana zəng edərək yüksək səs faizi toplaması münasibətilə ona təbriklərini çatdırması, seçkinin ikinci turundan sonra isə Rəcəb Tayyib Ərdoğanı ilk olaraq məhz Azərbaycan Prezidentinin təbrik etməsi bu mütləq dəstəyin, Ərdoğanın qalibiyyətinə sarsılmaz inamın bariz nümunəsi idi.

Türkiyə Prezidentinin inaqurasiya mərasimində Azərbaycan Prezidentinin və Mehriban xanım Əliyevanın iştirakı, qardaş ölkədən gəlmiş ali qonaqlara dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın xüsusi münasibəti də Azərbaycan-Türkiyə doğmalığının daha bir təzahürü oldu. Bu doğmalığı "TEKNOFEST" aerokosmik və texnologiya festivalında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı zamanı da duyub qürurlanmışıq. Hazırda Türkiyə-Azərbaycan birgə universitetinin yaradılması da gündəmdədir. Bu istiqamətdə danışıqların son mərhələsi aparılır. Yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bu dost münasibət regionumuzun gələcəyinə yeni bir töhfə verəcək.

Azərbaycan və Türkiyə texnologiyalar, müasir bilik və bacarıqlar dünyasında da birgədir, yanaşı irəliləyir, cənab Rəcəb Tayyib Ərdoğanın da vurğuladığı kimi, bütün dünyanın qibtə ilə izlədiyi bu qardaşlıq böyük ortaq keçmişimiz işığında böyük ortaq gələcəyimizi yaradır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Qurtuluşdan Zəfərə

## Qarabağ və Şərqi Zəngəzurda Azərbaycan bayrağının dalğalanması milli qurtuluşun ən möhtəşəm təntənəsidir

Xalq olaraq 1993-cü il iyunun 15-dən 2020-ci il noyabrın 8-nə qədər olan 27 illik zaman dilimində şərəflə və qətiyyətlə irəlilədiyimiz möhtəşəm bir yol keçmişik, böyük qurtuluşdan böyük zəfərə yetmişik.

Vətən uğrunda çıxdığımız bu haqq yolunun başlanğıcında Ulu Öndər Heydər Əliyev qurtuluş missiyası ilə xalqımızı, ölkəmizi sürükləndiyi bəlalardan, məhv olmaq təhlükəsindən qurtarıb, 44 günlük Vətən müharibəsində isə xilaskarlıq missiyası ilə Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı 30 illik işğaldan azad edərək xalqımıza zəfər bəxş edib.

Üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımızı Qarabağın və Şərqi Zəngəzurun şah zirvələrində dalğalandıraraq, bizə milli qurtuluşumuzun ən möhtəşəm təntənəsini yaşadan qalib lider İlham Əliyev həm də bu qürurlu qələbəsi ilə Ulu Öndər Heydər Əliyevin ruhunu şad edib.

### Başlanğıc günü

"Qarabağı azad görmək Heydər Əliyevin və bütün dünya azərbaycanlılarının əsas arzusu idi. Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik".

Bu fikirləri Ulu Öndərin 100 illik yubileyi ilə bağlı məhz Qarabağın, Azərbaycanın ürəyi Şuşadan xalqa müraciətində Prezident İlham Əliyev deyib. O gün İlham Əliyev dövlət başçısı, eyni zamanda da ata vəsiyyətini yerinə yetirən oğul fəxarəti, qüruru ilə söylədi ki, 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq: "O gün mənə, bax bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport veriləndən sonra, bu binanın üstünə bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, "Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!"

Amma o da gerçəklikdir ki, 30 ilin ardından zəfər qalamız Şuşada qalibiyyətimizi, ən əlamətdar günlərimizi bayram kimi qeyd edəcəyimiz təntənəli günlərə qədər xalqımız böyük çətinliklərdən, sınaqlardan ibarət uzun bir yol qət etmişdi.

1988-ci ildən etibarən Azərbaycan xalqının düşdüyü ağır və böhranlı günlər 1990-cı illərin əvvəllərindən etibarən daha da kritik həddə çatmış və konkret olaraq biz torpaqlarımızın, müstəqilliyimizin itirilməsi, xalqımızın məhv olması kimi dəhşətli reallıqlarla üz-üzə qalmışdıq.

O vaxt iqtidarda olan yarıtmaz AXC-Müsavat cütlüyü hakimiyyət hərisliyinə qapılaraq torpaqlarımızı şəxsi mənafelərinin güdazına vermişdi. 1992-ci ilin may ayında 10 gün ara ilə Şuşa və Laçın işğal olundu, 1993-cü ilin aprelində isə Kəlbəcərin işğal altına düşməsi ilə faktiki olaraq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. On minlərlə insanımız yurdlarından didərgin düşərək məcburi köçkünlüyün maddi, mənəvi məhrumiyyətlər, sıxıntılar girdabına yuvarlandı.

Ümumiyyətlə, həmin dövr ölkənin hər yerində qıtlıq, yoxluq, aclıq, səfalət hökm sürür, siyasi və hərbi böhran gün-gündən dərinləşirdi. Digər tərəfdən də hakimiyyətin kreslo davası ölkədə qardaş qanının axıdılması, vətəndaş müharibəsi kimi faciəvi nəticəyə gətirib çıxarmışdı.

Belə bir çətin və ağır dövrdə Azərbaycan xalqı öz milli iradəsini ortaya qoyaraq ayağa qalxdı və qurtuluşuna yol açacaq insanı - Heydər Əliyevi təkidlə Bakıya dəvət etdi. O böhranlı zamanda - 15 iyun 1993-cü ildə xalqın tələbi ilə Azərbaycanda hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev müstəqilliyimizin xilaskarı oldu, ölkəmizi xaosdan, vətəndaş qırğınından, müharibədən, dövlət çevrilişlərindən qurtardı. Müasir Azərbaycan tarixinə dövlətçiliyimizin xilaskarı, banisi kimi adını qızıl hərflərlə həkk etdirən Heydər Əliyevin indi böyük qürurla bayram - Milli Qurtuluş Günü kimi qeyd etdiyimiz 15 iyunda hakimiyyətə qayıdışı Azərbaycan xalqının taleyində dönüş nöqtəsi oldu.

### Qüdrətimizi şərtləndirən Heydər Əliyev strategiyası

"Azərbaycan xalqı Heydər Əliyevin simasında güclü lideri seçərək, öz taleyini ona etibar etdi və yanılmadı. Azərbaycan xalqı müdrik xalqdır, dəfələrlə ən çətin anlarda, ən çətin dövrlərdə yeganə düzgün müdrik qərar qəbul etmişdir", - deyə Şuşadan xalqa müraciətində Prezident İlham Əliyevin də söylədiyi kimi, müdrik rəhbər Heydər Əliyevin sayəsində itirilmiş inamı özünə qayıdan Azərbaycan xalqı özünün Milli Qurtuluş Günündən etibarən işıqlı gələcəyə doğru yol aldı.

Ulu Öndər Heydər Əliyev ölkə daxilində, eləcə də beynəlxalq səviyyədə yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycanı xəyanətkar, satqın AXC-Müsavat cütlüyünün düçar etdiyi fəlakətlərdən, məhrumiyyətlərdən qurtardı, ölkəni sürətli inkişaf yoluna çıxardı. Getdikcə beynəlxalq əlaqələri güclənən Azərbaycanda 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və yeni neft strategiyasının uğurlu başlanğıcının qoyulması isə ölkəmizin əldə etdiyi ən parlaq nailiyyətlərdən biri kimi tarixə yazıldı. Bununla bağlı İlham Əliyev də xalqa müraciətində demişdir: "Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, inkişaf edək, Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir".

### Xalqın adamı

Heydər Əliyev xalqın adamı idi, ürəyi daim xalqla döyünürdü, xalq da ona böyük sevgi, sayğı, hörmət duyurdu. Sadə rəhbər, el adamı olan Ulu Öndər hər zaman xalqın içərisində, xoş gündə də, dar gündə də onunla birgə idi.

Xalqının düçar olduğu qaçqınlıq, məcburi köçkünlük bəlası Ulu Öndəri çox narahat edirdi və buna görə idi ki, hakimiyyətə gəldiyi ilk vaxtlardan adıçəkilən problemin həllini özünün prioriteti elan etmişdi. Uğurlu neft strategiyası sayəsində əldə edilən ilk vəsaitin də məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi, ən əsası isə insanlarımızın acınacaqlı vəziyyətdə yaşamağa məcbur olduğu çadır düşərgələrinin ləğvinə başlanılması Ulu Öndərin bu insanlarımıza həssas diqqətinin riqqətləndirici örnəyidir.

Lakin heç şübhəsiz ki, böyük vətənpərvər Heydər Əliyevin gündəliyində duran birnömrəli məsələ torpaqlarımızın işğaldan azad edilməsi idi. Ulu Öndər bütün nitqlərində, məcburi köçkünlərlə olan söhbətlərində, bir gün mütləq işğal altındakı torpaqlarımızın azad olunacağına və məcburi köçkünlərimizin öz yurdlarına qayıdacaqlarına qəti əminliyini, inamını ifadə edirdi.

1994-cü ildə Heydər Əliyevin Ali Baş Komandanlığı altında aparılan uğurlu Horadiz əməliyyatı sayəsində torpaqlarımızın bir qisminin işğaldan azad olunması və Böyük qayıdışa illər əvvəl uğurlu start verilməsi isə işğal altında olan digər ərazilərimizin də azadlığı və insanlarımızın dədə-baba yurdlarına qayıdışının tezliklə gerçəkləşdiriləcəyinin ilk müjdəsi idi.

### Xilaskarlıq missiyası

Azərbaycan son 20 ildə Heydər Əliyev amallarının işığında, müəyyənləşdirdiyi düzgün strateji yolda inamla irəliləyərək mühüm nailiyyətlərə imza atıb, möhtəşəm qələbələr qazanıb. Dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilən Heydər Əliyev siyasəti sayəsində bu gün Azərbaycan siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə sürətli və mühüm inkişaf əldə edib. Ulu Öndər strategiyasının Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilməsi nəticəsində hazırda Azərbaycan dünyanın ən sayılıb-seçilən ölkələrindən birinə, Cənubi Qafqazda lider ölkəyə çevrilib.

Prezident İlham Əliyevin illərdən sonra belə, xalqımızın qürurla anacağı və fəxarətlə bəhs edəcəyi tarixi missiyası isə "dəmir yumruq"la torpaqlarımızı işğaldan azad etməsi, müqəddəs ata vəsiyyətini yerinə yetirməsidir. Diplomatik arenada apardığı uğurlu siyasət, mükəmməl sərkərdəlik qabiliyyəti sayəsində yürütdüyü döyüş taktikası sayəsində torpaqlarımızın işğalına cəmi 44 gün ərzində son qoyan Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza 8 noyabr Şuşa Zəfərini ərməğan edib.

Eyni əzm və güclə də bu gün qurucu lider İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dirçəldir, əzəli torpaqlarımıza əbədi qayıdışı gerçəkləşdirir. "Necə ki Ulu Öndərin vəsiyyətini yerinə yetirərək öz doğma torpaqlarımızı azad etdik, ərazi bütövlüyümüzü bərpa etdik, aprelin 23-də Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qurduq, orada Azərbaycan bayrağını qaldırdıq, ərazi bütövlüyümüzü tam bərpa etdik", - söyləyən dövlət başçısı Ulu Öndərin 100 illiyi münasibətilə Qarabağın baş tacı Şuşadan xalqa təbrik müraciətində vurğuladı ki, mülki missiyamızı - bu gözəl diyarın bərpası missiyasını da şərəflə yerinə yetirəcəyik.

### Bundan sonra da Azərbaycan yalnız inkişaf edəcək

Bəli, bu gün Azərbaycanın dünyanın hər yerindən görünən, sayılıb-seçilən ölkəyə çevrilməsi, xalqımızın firavan həyatı, vaxtilə yurdundan didərgin düşən yüzminlərlə insanımızın keçmiş məcburi köçkünə çevrilməsi, 30 ilin ardından Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışın həyata keçirilməsi Ulu Öndər ideyalarının Prezident İlham Əliyev tərəfindən reallaşdırılmasının parlaq təzahürləridir.

Bu barədə İlham Əliyev Şuşadan belə bəyan etmişdir: "2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

**Tarixi zəfərimiz Azərbaycanın qarşısında geniş imkanlar yaradır. Ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu daha da möhkəmlənir. Ədalətə və beynəlxalq hüquqa əsaslanan mövqeyimizə dəstək günbəgün artır. Azərbaycan heç kimdən yardım istəmədən yalnız öz iqtisadi qüdrəti hesabına işğaldan azad edilmiş əraziləri yenidən qurur, həmçinin beynəlxalq investorları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya yatırmağa dəvət edir.**



# Şərqi Zəngəzur böyük investisiya mərkəzinə çevrilir

## "Araz Vadisi" Sənaye Parkının ilk obyekti Azərbaycan və Rusiyanın birgə yaratdığı müəssisə oldu

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının, Türk Dövlətləri Təşkilatının konfranslarında dost və qardaş, tərəfdaş ölkələrin iş adamlarına çağırış edərək onların işğaldan azad edilmiş ərazilərimizdə yatırımlar etməsi, müəssisələr yaratması üçün əlverişli imkanların yaradıldığını söyləyir. Məhz həmin çağırışların nəticəsidir ki, bu gün bir neçə dost və tərəfdaş ölkənin böyük investorları Qarabağ və Şərqi Zəngəzur ərazilərində müxtəlif sahələrə yatırımlar edirlər.

Əcnəbi səhmdarların daha çox maraq göstərdikləri məkan isə "Araz Vadisi" Sənaye Parkıdır. Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Sənaye Parkının logistik imkanlar baxımından əlverişli ərazidə yaradılması investorların diqqətini cəlb edən əsas amillərdən biridir. Park yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq.

İyunun 17-də "Araz Vadisi" Sənaye Parkının ilk müəssisəsinin açılış mərasimi keçirilib. Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanovun iştirakı ilə keçirilən mərasimdə bəlli olub ki, sənaye parkında ilk rezident "Avto Lizinq Azərbaycan" MMC-dir. Rusiya və Azərbaycan birgə müəssisəsi olan müəssisə tərəfindən sənaye parkının 3 hektar ərazisində texniki servis mərkəzi yaradılıb. Mərkəz yük avtomobilləri və kənd təsərrüfatı texnikalarına xidmət göstərilməsi sahəsində hab rolunu oynayacaq. Mərkəzdə işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan 1500-dək avtomobilə, həmçinin yüklərin daşınmasını həyata keçirəcək tranzit avtomobillərə və digər texnikalara peşəkar xidmət göstəriləcək.

Mərkəzdə texniki xidmət bloku, təmir emalatxanası, gözləmə zalı, tədris otağı, anbar, portal tipli avtoyuma məntəqəsi və xidməti otaqlar yaradılıb. Texniki təmir emalatxanasında mühərriklərin və digər aqreqatların, elektrik avadanlıqlarının, pnevmatik və hidravlik qurğuların təmiri sahələri, daxili yanma mühərriklərinin yuyulması məntəqəsi fəaliyyət göstərəcək.





Burada həmçinin mehmanxana, ehtiyat hissələri mağazası və digər xidmət sahələri istifadəyə verilib. Bununla yanaşı, mərkəzdə mobil təmir və texniki servis briqadaları da fəaliyyət göstərəcək ki, bu da işğaldan azad olunmuş ərazilərimizdə istifadə olunan bütün texnikalara yerində xidmət göstərməyə imkan yaradacaq. Ümumi investisiya həcmi 10,2 milyon manat olan müəssisənin inşasına artıq 9,4 milyon manatdan çox investisiya yatırılıb. Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin edilməsinə də töhfə verəcək.

Göründüyü kimi, ölkəmizdəki digər mövcud sənaye parklarında olduğu kimi, "Araz Vadisi" Sənaye Parkında da sahibkarlar üçün əlverişli investisiya mühiti formalaşdırılır. Belə ki, sənaye parkının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, işıq, su, kanalizasiya, daxili avtomobil və dəmir yolları, fiber-optik və s.) təmin edilir. Eyni zamanda rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən və gömrük rüsumlarından azad olunurlar. Bunlarla yanaşı, İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən rezidentlərə hər cür təşkilati dəstək göstərilir.

Əlbəttə ki, bütün bunlar da əcnəbi investorların Azərbaycana, xüsusən də Qarabağ və Şərqi Zəngəzura olan marağının artmasına real zəmin yaradır. Tezliklə "Araz Vadisi" Sənaye Parkının rezidentlərinin sayı daha da artacaq və bu da Azərbaycan iqtisadiyyatına öz müsbət təsirini göstərəcək.

Onu da vurğulayaq ki, həmin gün Prezident İlham Əliyev və Rüstəm Minnixanov Zəngilan rayonunun Ağalı kəndində də olublar. Qonaq Azərbaycanın yalnız öz iqtisadi qüdrəti hesabına keçmiş məcbiri köçkünləri üçün yaratdığı müasir "ağıllı kənd" layihəsi ilə yaxından tanış oub.

Rüstəm Minnixanovun yeni müəssisənin açılışında iştirak etməsi, Ağalı kəndindəki müasir "ağıllı" yaşayış kompleksi ilə tanış olması tarixi zəfərimizin reallıqlarının təqdimatında əhəmiyyətli rol oynamış oldu. Bütün bunlar Azərbaycan-Rusiya iqtisadi münasibətlərinin inkişafına öz müsbət təsirini göstərmiş olacaq.

İlham Əliyev Bakıda Rüstəm Minnixanovla görüşündə də ümidvar olduğunu bildirdi ki, müəyyənləşdirilən əməkdaşlıq proqramı tam şəkildə həyata keçəcək. Dövlət başçısı ərazilərimizin bərpası işinə belə münasibətə görə minnətdarlığını da ifadə etdi.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

**20 İyun Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günüdür**

# Ölkəmizdə qazlaşdırmanın coğrafiyası genişlənir

## Azərbaycan dünyada ən çox qazlaşdırılan ölkələr sırasındadır

Ölkəmizdə iqtisadi islahatlar sosial infrastruktur tədbirləri ilə paralel aparılır. Məqsəd ölkənin iqtisadi inkişafı ilə yanaşı, əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır.

Prezident İlham Əliyev nəhəng sosial infrastruktur layihələrinin icrasına başladıqdan sonra Azərbaycanın sosial siması kökündən dəyişdi. Əvvəllər mövcud olan qaz, elektrik enerjisi, su və yol problemləri tədricən aradan qaldırılmağa başladı. Xüsusilə ölkənin qazlaşdırılması istiqamətində icra edilən layihələrin coğrafiyası genişləndi.

Prezident İlham Əliyev ölkədə qazlaşmanın sürətləndirilməsi, əhalinin bu imkandan istifadəni asanlaşdırmaq üçün 2018-ci il 5 mart tarixli sərəncam imzalamışdır. Sərəncamın imzalanmasında məqsəd ölkənin qazlaşmasının səviyyəsini 95 faizə çatdırmaq idi. Bunun üçün gəlmişkən qeyd edək ki, cari ilin sonunadək 59 kənd 102 yaşayış massivinin qazlaşdırılması nəzərdə tutulub.

O da vacib məqamdır ki, qazlaşma sahəsində şəffaflığı təmin etmək məqsədilə yerlərdə birbaşa vətəndaşlarla görüşlər keçirilir. Növbəti görüş SOCAR "Azəriqaz" İB-nin "Səyyar qəbul otağı" Göygöl rayonunda təşkil olunub. Aksiyada bu dəfə müraciətləri həllini tapan abonentlər də iştirak ediblər. Onlar operativ tədbirlərə görə qaz təsərrüfatı işçilərinə minnətdarlıqlarını bildiriblər.

Bu arada SOCAR "Azəriqaz" İstehsalat Birliyinin 2 milyon 500 mininci abonentinin adı da məlum olub. O, Göygöl rayonu, Murovdağ qəsəbəsində qeydiyyatda olan Hacıyev Natiq Musa oğludur. Natiq Hacıyev torpaqlarımızın azadlığı uğrunda gedən Vətən müharibəsində iştirak edib və döyüş zamanı yaralanıb. Müharibə veteranının yaşadığı fərdi yaşayış evinin qazlaşdırılması işi SOCAR "Azəriqaz" İB tərəfindən təmin edilib. Aparılan hesabatlar zamanı Natiq Hacıyevin 2 milyon 500 mininci abonent olduğu məlum olub. Bu məqsədlə qurum rəsmisi abonentin fərdi yaşayış evini ziyarət edib. Daha sonra istehsalat birliyi adından qazinin ailə üzvlərinə hədiyyə təqdim olunub.



SOCAR-a dövlət əsaslı vəsait qoyuluşundan 100 milyon manat ayrıldı.

Həmin vəsait və digər tədbirlər hesabına ölkədə son illər əhalinin təbii qaza tələbatının təmin edilməsi istiqamətində bir sıra vacib tədbirlər həyata keçirilmiş, qaz təchizatı infrastrukturu yenidən qurulmuş, təbii qazla təchiz olunmayan yaşayış məntəqələrinə qaz kəmərləri çəkilmiş, əhaliyə verilən təbii qazın dəyərinin tam həcmdə ödənilməsini təşkil etmək məqsədilə sayğaclaşma işləri aparılmışdır.

Cari ildə də ölkənin qazlaşdırılması istiqamətində işlər davam etdirilir. Bu ilin yanvar ayından indiyədək 15 kənd və 25 yaşayış massivinin qazlaşdırılması işləri yekunlaşmışdır. Daha 23 kənd və 19 massivin qazlaşdırılması isə davam edir. Eyni zamanda 11 kənd və 14 yaşayış massivində işlər başa çatmaq üzrədir. Qazlaşdırılma prosesi yekunlaşan ərazilərdə işlərin yenicə görülməsinə baxmayaraq, qazın verilməsi prosesi tam təhlükəsiz şəkildə həyata keçirilir. "Azəriqaz" İstehsalat Birliyi Fövqəladə Hallar Nazirliyi və digər müvafiq orqanlarla birgə yoxlanışlar apardıqdan sonra həmin bölgəyə qazın verilişi dərhal təmin olunur. Yeri

"Azəriqaz" sahibkarlığın inkişafı üçün üzərinə düşən vəzifələrin icrasına diqqətlə yanaşır. İB-nin KOBİA nümayəndəsinin iştirakı ilə növbəti görüşü "Açıq mikrofon" aksiyası çərçivəsində sahibkarlarla Tovuz rayonunda keçirilib. Görüşdə sahibkarlar qazlaşdırma problemləri ilə bağlı məsələləri birbaşa İstehsalat Birliyinin nümayəndələrinə bildiriblər.

Prezident İlham Əliyev ölkədə qazlaşmanın əhəmiyyəti və əhaliyə edilən güzəştlər barədə demişdir: "Bizdə aparılan qazlaşdırma siyasəti öz konkret nəticələrini verir. Bizim qaz ehtiyatlarımız çoxdur, təbii ehtiyatlarımız da vardır. Biz indi qazı başqa ölkələrə də ixrac edirik. Belə olan halda ilk növbədə Azərbaycan vətəndaşları bu imkanlardan istifadə etməlidirlər".

***Rüstəm KAMAL, "Azərbaycan"***

**20 İyun Ümumdünya Qaçqınlar Günüdür**

# Azərbaycan daha məcburi köçkünlər ölkəsi deyil

## 2020-ci ilin noyabrında qazanılan zəfərlə xalqımız bu ağır yükdən xilas olmuşdur

Bu gün dünyada BMT Baş Assambleyasının 2000-ci il dekabrın 4-də qəbul etdiyi qətnaməyə əsasən, Ümumdünya Qaçqınlar Günü kimi qeyd edilir.

Bu tarix dünyada bayram yox, milyonlarla insanın faciəsi, evindən, yurdundan, vətənindən didərgin düşməsinin anılması günüdür. Bu gün insanlar bir-birini təbrik etmir, belə bir həyatı yaşamağa məcbur olanlar bir-birinə təsəlli verirlər.

Biz də 30 il öz ölkəmizdə bu ili qara gün kimi qeyd etmişik. Amma indi Ümumdünya Qaçqınlar Günü bizim üçün tarixin yaddaşına yazılmış ağrılı-acılı keçmiş bir səhifədir.

Bir əsrə yaxındır ki, ermənilərin təcavüzkar niyyəti nəticəsində insanlarımız dörd dəfə dədə-baba yurdları olan qədim İrəvan torpaqlarını tərk etmək məcburiyyətində qalmışlar. Sonuncu dəfə 1988-ci ildə 250 min etnik azərbaycanlı indi Ermənistan adlanan tarixi torpaqlarından qovularaq Azərbaycana pənah gətirmişlər. Ermənistanın torpaqlarımıza silahlı təcavüzü nəticəsində isə yüz minlərlə soydaşımız Dağlıq Qarabağdan və Şərqi Zəngəzurdan didərgin salınaraq ölkənin 67 rayonunun 1600 məntəqəsində müvəqqəti məskunlaşmaq məcburiyyətində qalmışdı.

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə münaqişənin sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 822, 853, 874, 884 nömrəli qətnamələr qəbul etmişdir. Lakin Ermənistan bu qərarların heç birinə əməl etməyərək təcavüzkar niyyətini davam etdirmişdir.

2020-ci ilin sentyabr-noyabrında Azərbaycan Ordusu uğurlu döyüş əməliyyatları keçirərək düşmənin növbəti təcavüzkar niyyətinin qarşısını almış, eyni zamanda BMT-nin qaçqın və məcburi köçkünlərimizin doğma yurdlarına qaytarılması haqqında qəbul etdiyi 4 qətnaməsini təkbaşına icra edərək Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoymuşdur.



Amma Ermənistanın 30 il davam edən hərbi işğal dövründə ərazilərimiz genişmiqyaslı dağıntılara məruz qalmışdır. Hətta o dərəcədə ki, təcavüzkarlar işğal etdikləri ərazilərdə kütləvi surətdə mina basdırdıqları üçün keçmiş məcburi köçkünlərimizin yurdlarına təhlükəsiz qayıtması üçün hələ də maneələr qalmaqdadır. Təəssüflər olsun ki, düşmən minaladığı ərazilərin xəritələrini bu gün də müxtəlif bəhanələrlə təqdim etmir. Bu isə məcburi köçkünlərin təhlükəsiz və operativ şəkildə geri qayıtmalarını ləngidir.

Bütan bunlara baxmayaraq, hazırda düşməndən azad olunmuş torpaqlarda sürətli abadlıq-quruculuq işləri aparılır. Yenidən tikilən hər bir yol, məktəb, mədəniyyət və dini abidələrin bərpası davamlı, dinc və firavan gələcəyə doğru atılan addımlardır. Fərəhlə qeyd edə bilərik ki, bütün çətinliklərə baxmayaraq, doğma torpaqlarından didərgin düşmüş vətəndaşlarımızın yurdlarına qaydışı başlanıb. Bir zamanlar evlərini göz yaşı içərisində tərk edən insanlar sevinc içərisində evlərinə dönürlər.

Sonda qeyd edək ki, hazırda dünya əhalisinin hər 120 nəfərindən biri qaçqınlıq həyatı yaşamaq məcburiyyətindədir. Milyonlarla insan müxtəlif səbəblərdən doğma yurdundan didərgin düşüb. İndi dünyada yaşayış yerini itirmiş 110 milyondan çox insan var. Bunlar daha çox Ukraynadan, Suriyadan, Liviyadan, Pakistandan, Əfqanıstandan, İrandan məcbur olub qaçqın düşmüş insanlardır.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Laçın həsrəti sona çatır

## Daha 13 ailə doğma şəhərinə qayıtdı



**Prezident İlham Əliyevin birbaşa nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə başladılan yenidənqurma və bərpa işləri nəticəsində mənfur düşmənin 30 il ərzində xarabalığa çevirdiyi şəhər və kəndlərimizdə həyat yenidən canlanır. Genişmiqyaslı bərpa və quruculuq işləri hər ötən gün özünün ən yüksək səviyyəsinə çatır.**

Hazırda çiçəklənmə dövrünü yaşayan Şərqi Zəngəzurun dilbər guşəsi olan Laçın rayonu da sürətlə dirçəldilərək abad məkana çevrilir. Rayon yenidən qurulur, Laçın şəhəri başda olmaqla, yaşayış məskənləri bərpa edilir.

Böyük qayıdışın növbəti ünvanı olan Laçın şəhərinə dünən növbəti dəfə 13 ailəlik köç karvanı yola salınıb. Ümumilikdə üçüncü olan bu köç zamanı daha 44 nəfər azadlığına qovuşan Laçına qayıdışın sevincini yaşayıb. Uzun illərin həsrətindən sonra doğma torpaqlara qovuşmuş laçınlıların çöhrəsini bürüyən xoş təbəssüm fəxarət hissi doğurur.

### Zövqlə bərpa edilən və yenidən qurulan Laçın

Ermənilərin viran qoyduğu doğma torpaqlarımız "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində gerçəkləşdirilən bərpa və quruculuq işləri sayəsində xeyli dirçəlib. Prezident İlham Əliyev mayın 28-də Laçına qayıdan əhali ilə görüşdə aparılan quruculuq işlərindən bəhs edib. "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun", - deyə dövlət başçısı bildirib. Doğrudan da Laçının müasir siması şəhərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin böyük zövq və yüksək keyfiyyətlə aparıldığını təsdiq edir.

Bu bir daha sübut edir ki, keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətlə qayıdışı dövlət siyasətinin prioritetlərindəndir. Ona görə də Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə icra edilən Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində işlər intensiv şəkildə həyata keçirilir, keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş şəhər və kəndlərimizə qayıdışı sürətlə icra olunur.









### Təbiətlə vəhdətdə olan şəhər

Laçında keçmiş məcburi köçkünlərin həyat şəraitini yenidən bərpa etmək üçün quruculuq işlərinə hələ ötən ildən etibarən başlanılıb. Laçında 620-si fərdi yaşayış binası olmaqla ümumilikdə 700 bina inşa edilir. Sakinlərin rahat və təhlükəsiz yaşayışı üçün bütün lazımi şərait yaradılır. Ötən gün Laçına yola salınmış 15 ailə ilə birlikdə şəhərdə indiyədək 55 ailənin, yəni 213 nəfərin daimi məskunlaşması təmin edilib. Laçında yaradılmış infrastruktur birinci mərhələdə orada 764 ailənin, təxminən 4 min nəfərin yaşamasına imkan verir.

Bütün bunlar Laçın şəhərinin baş planında da öz əksini tapıb. Yaxın illərdə laçınlı soydaşlarımızın hər birinin doğma yurdlarına qayıdışını təmin etmək üçün şəhərdə quruculuq-abadlıq işləri sürətlə davam etdirilir. Baş planın əsasında Laçın "təbiətlə vəhdətdə olan şəhər" kimi xarakterizə edilir. Qeyd olunur ki, növbəti mərhələdə rayonda iqtisadi şaxələndirmənin təmin edilməsi, ekologiyanın mühafizəsi, "yaşıl enerji" mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə kimi məsələlərə diqqət artırılacaq. Baş plana əsasən, Laçın "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən innovativ mərkəzə çevriləcək.

Ümumiyyətlə, coğrafi baxımdan mühüm strateji mövqedə yerləşən Laçında keçmiş sakinlərin orada yenidən məskunlaşdırılması Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın vacib mərhələsidir.

### Qarabağ və Şərqi Zəngəzur əzəli sahiblərinə qovuşurlar

Laçın rayonu nəhəng bərpa-yenidənqurma işlərindən və məskunlaşma mərhələsindən sonra təkcə Şərqi Zəngəzurun deyil, bütövlükdə Azərbaycanın iqtisadi inkişafına xüsusi töhfə verən bölgələrimizdən birinə çevriləcək. Bütövlükdə, 10 mindən çox vətəndaşımızın yaxın illərdə Laçın rayonuna qayıdacağı proqnozlaşdırılır. Ona görə də rayon sakinləri üçün keyfiyyətli həyat şəraiti yaratmaqdan ötrü fasiləsiz addımlar atılır. Görülən böyük işlərin nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərə köç edən digər soydaşlarımız kimi, bu gün laçınlılar da yurda qayıdışın sevincini yaşayır, Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edirlər.

Sürətlə dirçələn Qarabağ və Şərqi Zəngəzur dövlətimizin, xalqımızın quruculuq əzminin bariz nümunəsinə çevrilib. Görünən odur ki, Vətən müharibəsi zamanı göstərilən milli birlik postmünaqişə dövrünün quruculuq və abadlıq mərhələsinə daşınıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, indi qurub-yaratmaq vaxtıdır: "Bugünkü Laçın şəhərinin siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq, birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir".

Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımızın azadlığa qovuşması arzusu ilə yaşayan Azərbaycan xalqının bu gün də nümayiş etdirdiyi milli birlik doğma yurdlarımıza yeni nəfəs gətirir. Biz tezliklə nəinki laçınlıların, eləcə də Qarabağ və Şərqi Zəngəzur həsrəti ilə yaşayan bütün soydaşlarımızın simasında doğma yurda dönüşün sevincini görəcəyik. Vandallığa məruz qalmış ərazilərimiz bərpa olunduqca bütün keçmiş məcburi köçkünlər öz doğma evlərinə geri qayıdacaqlar.

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# "Muğam aləmi"

## VI Beynəlxalq Musiqi Festivalı

İyunun 18-də Bakıda "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı başlayıb. Festival Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.







AZƏRTAC xəbər verir ki, festivala Heydər Əliyev Sarayında "Alim Qasımov və onun qonaqları" adlı konsertlə start verilib. Konsertdə dövlət və hökumət rəsmiləri, tanınmış elm və mədəniyyət xadimləri, eləcə də muğamsevərlər iştirak ediblər.

Konsertdən əvvəl AZƏRTAC-a müsahibə verən Xalq artisti Alim Qasımov festivalın əhəmiyyətindən və ölkəmizdə muğam sənətinə göstərilən diqqət və qayğıdan danışıb. Görkəmli xanəndə bildirib ki, son illərdə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının qorunması və təbliği istiqamətində mühüm layihələr reallaşdırılıb: "Bu gün dünyanın çox yerində muğamlarımıza böyük maraq var. Xüsusilə ölkəmizdə keçirilən muğam festivalları, televiziya muğam müsabiqələri bu nadir sənət növünün həm yaşadılması, həm də gələcək nəsillərə ötürülməsində böyük rol oynayır. Bu sırada "Muğam aləmi" festivalının da xüsusi yeri var. Bu festival 2009-cu ildən Bakıda keçirilir. "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı dünya musiqiçilərinin eyni səhnədə çıxışı və ortaq musiqi dəyərlərinin paylaşılması baxımından olduqca təqdirəlayiqdir. Bu işdə əməyi olanlara minnətdarlığımı bildirirəm".

Konsertdə muğamı müasir musiqi cərəyanları ilə sintez edən görkəmli xanəndə, Azərbaycan Respublikasının Xalq artisti Alim Qasımov, Əməkdar artist Fərqanə Qasımova, Əfqan rübabı və Hind sarodunun dünyaşöhrətli ifaçısı Daud Xan Sadozai, xoreoqraf, muğamla rəqs hərəkətlərini sistemləşdirən tədqiqatçı, 2004-cü ildə Kraliça Elizabetin "Almaz" medalına layiq görülən Saşar Zərif və Türkiyənin xalq musiqi sənətçisi Senem Akdemir çıxış ediblər.

"Muğam aləmi" Beynəlxalq Musiqi Festivali ilk gündən etibarən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəstəyi və himayəsi altında keçirilir. Festival irimiqyaslı beynəlxalq mədəni tədbir olub, lad sistemlərinə əsaslanan unikal musiqi fenomeninin bütün təzahürlərini əhatə edir. Bu festival regionların ənənəvi musiqi mədəniyyətlərinin bir çox görkəmli nümayəndələrini, eyni zamanda gənc musiqiçi, bəstəkar, tədqiqatçı, təbliğatçı və həvəskarlarını bir araya toplayıb bölgələrdəki mövcud vəziyyətin və orada formalaşmaqda olan ənənələrin nümayiş olunduğu beynəlxalq müstəviyə çevrildi. Festival müxtəlif ənənəvi və yeni musiqi janr və üslublu əsərlərdən ibarət silsilə konsertlər, beynəlxalq elmi simpozium və ənənəvi musiqi ifaçılarının müsabiqəsindən ibarətdir.

Əvvəlki müsabiqələrdə bir çox ölkə və regionlardan gənc ifaçılar arasından xüsusi istedadı olanlar üzə çıxarılıb və onların sırasından bəzi mükafatçı və iştirakçılar dünya musiqisinin beynəlxalq səhnəsində artıq parlayıblar. "Alim Qasımov və onun qonaqları" adlı konsertdə əsrarəngiz ifalar gecəyə gələnlərə xoş duyğular bəxş edib.

Xalq artisti Mənsum İbrahimov təəssüratlarını AZƏRTAC ilə bölüşərək deyib ki, 44 günlük tarixi zəfərimizdən sonra ilk dəfədir "Muğam aləmi" Beynəlxalq Musiqi Festivalı təşkil olunur. Bu festival muğam sənətimizin inkişafına böyük təkan verir: "Bu işdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çox böyük dəstəyi və qayğısı var. Qürurverici haldır ki, biz bu tədbirə Bakıda başlayır, Şuşada və digər bölgələrimizdə davam etdirəcəyik. Artıq Qarabağımızı azad etmişik. Oradan artıq güllə səsi yox, muğamımızın səsi gəlir. Bizim mədəniyyətimiz, musiqimiz inkişaf edir. Festival çərçivəsində iyunun 19-dan artıq Beynəlxalq Muğam Müsabiqəsi başlayır və üç gün ərzində davam edəcək. Həm Azərbaycandan, həm də müxtəlif ölkələrdən olan ifaçılar bu müsabiqədə iştirak edəcəklər. Düşünürəm ki, bu, ölkəmizin həm turizmi, həm də mədəniyyətimizin inkişafı üçün çox vacibdir".

"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalını sənət adamları üçün böyük bir bayram hesab edən görkəmli tarzən, Xalq artisti Zamiq Əliyev deyib ki, Azərbaycan muğamının qorunması və təbliği son illərdə dünya miqyasında diqqət mərkəzində saxlanılan vacib məqamlardandır. Azərbaycan muğamının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi bu musiqi ənənəsinə hopmuş böyük bədii dəyər və mədəniyyətlərarası potensialı sübut edir. Çox şadam ki, ölkəmizdə bu sənətə böyük və tükənməz sevgi var və muğam sənətinə xüsusi diqqət göstərilir. Bu işdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın əziyyətləri danılmazdır".

Qeyd edək ki, festivalın birinci günü həm də Milli Konservatoriyada Xalq artisti Ənvər Sadıqov və Əməkdar artist Emil Əfrasiyabın konsertləri keçirilib.

İyunun 19-da festival Beynəlxalq Muğam Mərkəzi, Milli Konservatoriya və Daş Salnamə Muzeyində Azərbaycandan Əməkdar artist Elçin Şirinov və bir sıra muğam ifaçılarının, Əfqanıstandan Daud Xan Sadozai və İrandan Mahan Mirarabın konsertləri ilə davam edəcək. İyunun 19-da, həmçinin festival çərçivəsində Beynəlxalq Muğam Müsabiqəsi start götürür.

❖ ❖ ❖

İyunun 19-da Azərbaycan Milli Konservatoriyasında "Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı çərçivəsində Beynəlxalq Muğam Müsabiqəsinin birinci turunun ilk mərhələsi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Beynəlxalq Muğam Müsabiqəsi xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə təşkil edilib. Müsabiqənin xanəndə və instrumental ifaçılıq kateqoriyaları üzrə münsiflər heyətinin sədri, Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, üzvləri isə Böyük Britaniyadan tanınmış musiqi nəşri olan "Songlines" jurnalının baş redaktoru Simon Broughton, İraqdan musiqiçi, ud ifaçısı, artisti Nasir Şamma (Naseer Shamma), Özbəkistandan "Soqdiana" Dövlət Ənənəvi Alətlər Kamera Orkestrinin yaradıcısı və dirijoru Firuzə Abdurahimova, Türkiyədən Beynəlxalq Ənənəvi Musiqi Şurasının Türkdilli Dünya Musiqisi üzrə tədqiqat qrupunun sədri Abdullah Akatdır.

Müsabiqənin dinləmələrindən əvvəl AZƏRTAC-a müsahibə verən münsiflər heyətinin sədri, Xalq artisti Siyavuş Kərimi festivalın əhəmiyyətindən və ölkəmizdə muğam sənətinə göstərilən diqqət və qayğıdan danışıb. Heydər Əliyev Fondu tərəfindən təşkil olunan bu cür layihələrin Azərbaycan muğamının qorunması və təbliği istiqamətində önəmini qeyd edib.

Beynəlxalq Muğam Müsabiqəsində Azərbaycanla yanaşı, İran, İsrail, Özbəkistan və Türkiyədən ümumilikdə 22 ifaçı iştirak edir. Birinci yer uğrunda instrumental ifaçılıq kateqoriyası üzrə 12, xanəndəlik kateqoriyası üzrə isə 10 ifaçı mübarizə aparır.

Müsabiqədə ölkəmizi instrumental ifaçılıq kateqoriyası üzrə 5, xanəndəlik kateqoriyası üzrə isə 4 ifaçı təmsil edir. Xanəndəlik kateqoriyasında Mirəli Sarızadə, Xəyal Hüseynov, Zümrüd Məmmədova, Daşqın Kürçaylı, instrumental ifaçılıq kateqoriyasında isə Vaqif Təhməzov, Cahandar Mikayılov, Bayraməli Əliyev və Soltan Nadirov Milli Muğam Müsabiqəsində ilk 3 yeri tutmuş ifaçılardır. İnstrumental ifaçılıq kateqoriyası üzrə ölkəmizi təmsil edən digər ifaçı Anar Vəlizadə isə Milli Konservatoriyanın tələbəsidir.

Müsabiqə üzrə ilk dinləmələr instrumental ifaçılıq kateqoriyası üzrə aparılıb. Bu kateqoriyada püşkatmada adları çıxan 6 iştirakçı - Bayraməli Əliyev, Sultan Nadirov, Vaqif Təhməzov (Azərbaycan), Zilola Ruziyeva, Jahongir Otamurodov, Shoxijohan Yoriev (Özbəkistan), xanəndəlik kateqoriyası üzrə olan püşkatmada isə 5 iştirakçı - Daşqın Kürçaylı, Zümrüd Məmmədova (Azərbaycan), Mohiçehra Şahmurotova, Ramziddin Ergashev, Dostmurod Negmurodov (Özbəkistan) öz ifalarını təqdim ediblər.

İyunun 20-də keçiriləcək müsabiqənin birinci turunun növbəti mərhələsində isə instrumental ifaçılıq kateqoriyası üzrə digər 6, xanəndəlik üzrə 5 ifaçının dinləmələri təşkil ediləcək. Qeyd edək ki, dinləmələrdən sonra ikinci tura keçən ifaçılar arasından qaliblər seçiləcək. Müsabiqənin ikinci turu iyunun 21-də keçiriləcək.

Festivalın iyunun 25-də Heydər Əliyev Mərkəzində keçiriləcək yekun konsertində qaliblərin mükafatlandırılması olacaq. Müsabiqənin xanəndə və instrumental ifaçılıq üzrə qaliblərini Azərbaycan, Böyük Britaniya, İraq, Özbəkistan və Türkiyədən olan beynəlxalq münsiflər heyəti seçəcək. Hər iki kateqoriyada 1-ci, 2-ci və 3-cü yerlər, eləcə də Qran-pri üzrə mükafatlar təqdim ediləcək.

"Muğam aləmi" VI Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir.

## Qarabağdan reportaj





# Quruculuğun Şuşa zirvəsi

**Qarabağın tacı, Vətən müharibəsində zəfərimizin zirvəsi olan Şuşa sürətlə dirçəlir, tarixi şöhrətini özünə qaytarır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə bərpa olunan Şuşada ötən iki il yarımda aparılan bərpa və quruculuq işlərinin miqyası olduqca möhtəşəmdir. Bu günlərdə Şuşa səfərində bir daha şəhərdə aparılan bərpa və quruculuq işləri ilə tanış olduq.**



### Azərbaycanın tarixi, mədəni və mənəvi irsi

Şuşa Azərbaycanın tarixidir, mədəniyyətidir. 271 yaşlı Şuşa Azərbaycanın mənəviyyatıdır. Bu əsilzadə şəhər öz memarlığı ilə, Azərbaycanın mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə verdiyi əzəmətli və möhtəşəm töhfələrlə xalqımızın tarixində özünəməxsus yer tutur. Ona görə Vətən müharibəsində Şuşanın işğaldan azad edilməsinin xalqımız üçün həm tarixi-siyasi, həm də mənəvi əhəmiyyəti vardı.

Bu şəhər həm də xalqımızın elə bir mənəvi xəzinəsidir ki, işğal dövründə Ermənistan nə qədər cəhdlər göstərsə də, Şuşanın qamətini əyə bilməyib. İşğalçılar nə qədər çalışsalar da, şəhərin tarixi simasını dəyişə, onu erməniləşdirə bilməyiblər. Şuşanın keçmişini silmək üçün bütün cəhdləri uğursuz alınıb, ona görə şəhərə qarşı vandallıq ediblər, tarixi binaları, məscidləri dağıdıblar.

Bəli, bu əzəmətli şəhəri Azərbaycandan, xalqımızdan qoparmaq sadəcə mümkün deyil. Prezident İlham Əliyevin dediyi kimi, Şuşa ayaqdadır, Şuşa sınmayıb, Şuşa əyilməyib! Mənfur düşmən nə qədər çalışsa da, Şuşanın simasını dəyişdirə bilməyib.

İndi Şuşa həm sürətlə bərpa olunur, həm də evsahibliyi etdiyi müxtəlif məzmunlu tədbirlərlə Azərbaycanın Vətən müharibəsindəki zəfərini bütün dünyaya bəyan edir.

### Şəhərin bərpası sürətlidir

Ötən iki ildən artıq dövrdə Şuşada xeyli bərpa işləri görülüb. Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri əvvəlki yerlərinə - Şuşa şəhər mərkəzi meydanına qaytarılıb. "Xan qızı" bulağı bərpa edilib. Qısa vaxtda Heydər Əliyev Fondu tərəfindən dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksində təmir-bərpa və yenidənqurma işləri aparılıb. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəli və dahi Azərbaycan şairi Molla Pənah Vaqifin büstü qoyulub. Xalq artisti Bülbülün ev-muzeyi bərpa edilib. Qala divarlarında bərpa işləri aparılıb. Şuşadakı Rəsm Qalereyası, Xalçaçılıq Qalereyası da şəhərin bərpa olunan binaları sırasında yer alır. "Xarıbülbül" və "Qarabağ" hotelləri isə Şuşaya gələn qonaqların istifadəsindədir. Şəhərin su və enerji təchizatı da yoluna qoyulub.

Qeyd edək ki, Şuşada quruculuq işlərinin bir qismi, o cümlədən tarixi binaların bərpası Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Fondun bu sahədə şəhərdə həyata keçirdiyi layihələr çərçivəsində Şuşanın tarixi, mədəni və dini abidələri sürətlə bərpa edilir. Baş çəkdiyimiz Yuxarı Gövhər ağa və Saatlı məscidləri də fond tərəfindən tam bərpa edilib. Məlum olduğu kimi Şuşa işğal altında olduğu müddətdə hər iki məscid ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin sonlarından başlanılan konservasiya və bərpa işləri çərçivəsində məscidlərin ilkin memarlıq üslubu təmin olunub, ermənilər tərəfindən edilmiş müdaxilələr tam aradan qaldırılıb.

Şuşada Mehmandarovların malikanəsinə də baş çəkdik. XVIII əsrdə inşa olunan və Şuşanın ən möhtəşəm evlərindən olan Mehmandarovların malikanəsində yalnız Qarabağın deyil, bütün Azərbaycanın fəxrinə, qüruruna çevrilmiş şəxsiyyətlər dünyaya gəlib, yaşayıblar. Təsadüfi deyil ki, bu ev Prezident İlham Əliyevin tapşırığı ilə Şuşada bərpa edilən ilk tarixi-memarlıq obyektlərinin sırasına salınmışdı. Malikanə Birinci vitse-prezident Mehriban Əliyevanın şəxsi nəzarəti və himayəsi ilə 2021-ci ilin oktyabr ayından Heydər Əliyev Fondu tərəfindən yeni Şuşanın qədim nümunəsi kimi bərpa edilib.

Milli Xalça Muzeyinin Şuşa filialı da yenidən qurulub. İşğal dövründə bina yararsız hala düşdüyündən və tarixi görkəminə müdaxilələr edildiyindən burada 2021-ci ildən etibarən Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. Görülmüş işlər nəticəsində binanın tarixi siması özünə qaytarılıb.

Şəhərdə bərpa olunan ünvanlardan biri Yaradıcılıq Mərkəzidir. Mərkəzin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Öyrənirik ki, Heydər Əliyev Fondu tərəfindən 2022-ci ildən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb.

Şuşa Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar Mərkəzi də şəhərdə aparılan kompleks bərpa və quruculuğun nümunəsidir. Bu mərkəz şəhərin enerji təchizatını ən müasir çağırışlar əsasında təmin edilməsində böyük rol oynayacaq.

Qeyd etdiyimiz kimi, "Xarıbülbül" və "Qarabağ" hotelləri Şuşaya gələn qonaqların istifadəsindədir. Artıq onların sırasına biri də qoşulub. Ötən ay istifadəyə verilən Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi həm də şəhərin yeni ünvanıdır.

2021-ci ildən inşasına başlanılmış bu kompleks Şuşanın mərkəzində yerləşir. Xatırladaq ki, kompleksin yerləşdiyi ərazidə işğal dövründə separatçı rejim "parlament" binasının tikintisini planlaşdırırdı. Lakin niyyətləri gözlərində qaldı. Elə müharibə günlərində həmin ərizidə xeyli sayda işğalçı məhv edildi.

### Heydər Əliyev, 8 Noyabr, Dəmir yumruq, Zəfər, Qarabağ küçələri…

Şuşanın küçələri də yenidən qurulur. Bu çərçivədə küçələrin adları həm də Vətən müharibəsindəki zəfərimizi, dövlətçiliyimizi, tariximizi ehtiva edir. Yenidən qurulan küçələrin Heydər Əliyev, 8 Noyabr, Dəmir yumruq, Zəfər, Qarabağ, Atatürk, Pənahəli xan adlandırılması Vətən müharibəsindəki qələbəmizi, tariximizə, milli irsimizə dərin ehtiramı, Azərbaycan-Türkiyə qardaşlığını özündə təcəssüm etdirir.

Şəhərdə həm də yeni yaşayış kompleksləri yaradılır. Ötən il 23 binadan ibarət ilk yaşayış kompleksinin inşasına başlanılıb. Ötən ay isə 17 binadan ibarət 2-ci yaşayış kompleksinin təməli qoyulub. Doğma şəhərlərinə geri qayıdacaq şuşalılar tezliklə yeni mənzillərdə yaşayacaqlar.

Şuşa Realnı Məktəbinin binasında, Şirin su hamamında, Sadıqcanın evində bərpa işləri davam edir. Ümumiyyətlə isə şəhərin bərpası kompleks şəkildə həyata keçirilir. Hər küçə, hər ev, hər bir mədəni və tarixi abidə diqqət mərkəzindədir. Ən əsası odur ki, mədəniyyət paytaxtımızın bərpa və yenidənqurulması layihələri Şuşanın özünəməxsus memarlıq ənənələrinə və xalqımızın milli dəyərlərinə söykənir.





*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

*Bakı-Şuşa-Bakı*

# İqtisadi azadlığın sınanmış modeli

## Bu model kiçik qəsəbəni dünyanın ticarət və maliyyə mərkəzinə çevirə bilir

Ələt Azad İqtisadi Zonasının yaradılması bütün ölkələrdə olduğu kimi, xarici ticarət strategiyasının bir forması olaraq iqtisadiyyatın davamlı inkişafı və rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Ölkəmizin logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi, eləcə də şaxələndirilmiş nəqliyyat infrastrukturundan daha səmərəli istifadə edilməsi təkcə bizim deyil, qonşu ölkələrin iqtisadiyyatının da inkişaf dinamizmini artıracaq.

Ələt qəsəbəsi beynəlxalq avtomobil və dəmir yollarının keçdiyi ən əlverişli nöqtədə yerləşir. O cümlədən Azərbaycan da dünyanın böyük bazarlarına elə də uzaq deyil. Bu isə azad ticarət zonasının iqtisadi səmərəliliyini artırmaqla onun Mərkəzi Asiya, İran, Rusiya, Türkiyə, Yaxın Şərq bazarlarına xidmət etməsinə imkan verəcək.

Bəs azad iqtisadi zona nədir və onun səmərəsi nədən ibarətdir? 1973-cü il mayın 18-də Yaponiyanın Kioto şəhərində keçirilmiş gömrük prosedurlarının sadələşdirilməsi və harmonikləşdirilməsi üzrə beynəlxalq konvensiyada göstərilir ki, azad zona (free zone) dedikdə, ölkə ərazisinin hər hansı bir hissəsi başa düşülür. Bu ərazidə məhsullara milli gömrük ərazisindən kənarda olan bir obyekt kimi baxılır. Ona görə də onlar gömrük nəzarətindən keçirilmir, vergiyə cəlb edilmir, yaxud da tamamilə ləğv olunur. Həmin güzəştlər ona görə edilir ki, yerli şirkətlər dünya bazarlarında rəqabət gücünə malik ola bilən məhsul istehsal etsinlər. Bu həm də regiona marağı olan şirkətlərin cəlb edilməsi üçün bir stimuldur.

Xüsusi iqtisadi zonalar, əsasən, XX əsrin ikinci yarısından etibarən ABŞ, Yaponiya, Koreya, Çin və başqa ölkələrdə yaradılmağa başlanıb. Dünya Bankının hesabatlarına əsasən, 130 ölkədə 4000-dən çox xüsusi iqtisadi zona mövcuddur ki, onların da qlobal ixracda çəkisi 200 milyard dollardan artıqdır.

Qeyd etmək lazımdır ki, azad iqtisadi zonaların yaradılması qısamüddətli bir proses deyil. Rusiyada, hətta Avropanın bir çox inkişaf etmiş ölkələrində azad zonanın yaradılması və formalaşdırılması xeyli vaxt və iradə tələb edib. Bu da onu deməyə əsas verir ki, azad iqtisadi zona ölkənin xüsusi rejim altında fəaliyyət göstərən bir ərazisidir.

Dünyada ən çox tətbiq olunan bu üsuldan istifadə edən Çin və ABŞ-dir. Bu ölkələrdə iqtisadi zonaların fəaliyyəti onları nümunəvi ölkələr sırasına çıxarıb. Amma biz BƏƏ-nin Dubay şəhərini misal çəkəcəyik. 1940-cı ilə qədər Dubay kiçik yaşayış məntəqəsi olub. 1979-cu ildə Cəbəl Əli limanının tikilməsi, ardından isə onun ətrafında azad iqtisadi zonanın salınması kiçik yaşayış məntəqəsini müasir dünyanın əsas ticarət və maliyyə mərkəzinə çevrilməsinə səbəb oldu. Azad iqtisadi zona Dubayın sürətli inkişafına çox böyük təkan verdi. Şərq-Qərb yolunun üzərində yerləşən şəhərdə bu gün dünyanın məşhur şirkətləri yaranmış güzəştlərdən səmərəli istifadə edirlər.

"Free Trade Zone" modelindən uğurla istifadə edən ölkələrdən biri də qardaş Türkiyədir. Yeri gəlmişkən qeyd edək ki, Türkiyənin Bosfor boğazında dəmir yolu xəttini istifadəyə verməsi ilə Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşməsi Ələt Azad İqtisadi Zonasının da əhəmiyyətini artırır. Belə ki, bununla Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçən yüklərin Avropa və Asiyaya çatdırılması təmin olunacaq. Zonanın fəaliyyəti Çin, Hindistan, İran, Rusiya və Mərkəzi Asiya regionu ilə Türkiyə və Qərb dövlətləri arasında ticarətin inkişafında və daha da sürətləndirilməsində böyük rol oynayacaq. Azərbaycan tranzit ölkə olaraq öz imkanlarını genişləndirə biləcək və ölkə ərazisi üzərindən daha çox yükdaşımalara nail olunacaq ki, bu da dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına gətirib çıxaracaq. Eyni zamanda Şərq-Qərb yolunun üzərində olan Azərbaycanda Ələt Azad İqtisadi Zonasına qoyulan xarici investisiyaların həcmi davamlı artacaq. Bu isə yeni müəssisələrin yaradılması ilə müşayiət ediləcək. Hər yeni müəssisə isə yeni iş yerləri olaraq sosial güvənlik deməkdir.

Onu da qeyd edək ki, paytaxtdan bir qədər aralıda yerləşən Ələt Azad İqtisadi Zonasının yaradılması üçün qanunvericilik bazasının uyğunlaşdırılmasına ehtiyac duyulmadı. Çünki Azərbaycanda qanunvericilik bazası təkmil olduğu üçün bu sahənin inkişafında heç bir maneə yoxdur. Bu gün zonanın inkişafı üçün münbit şəraitin daha çox olduğu Azərbaycanda icra ediləcək layihələr onu beynəlxalq loqistika və nəqliyyat sektorunda beynəlxalq qovşağa çevirəcəyinə ümid verir. Həmin layihələr Azərbaycanın geosiyasi önəmini böyük dərəcədə artıracaq, ona Avrasiya məkanında regional əməkdaşlıq üçün əvəzolunmaz ölkə statusu qazandıracaq.

Xəbər verildiyi kimi, bu günlər Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılışı oldu. Bildirildi ki, sənaye zonasında çalışanların aldıqları yüksək məbləğdə maaşa gəlir vergisi tətbiq edilmir. Yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır. Əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur. Xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur. İnvestorların əmlakı heç bir halda milliləşdirilə bilməz və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakını bu və ya digər məhdudiyyətlərdən qorunmasına təminat verir və onların əqli mülkiyyət hüquqları tam qorunur.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Mühasiblərin peşəkarlıq sertifikasiyası

## Bunun üçün müəyyən edilmiş müddət sona yaxınlaşır

Dünyada mühasibatlıq sahəsinə dair müəyyən tələblər var ki, bunlardan da biri mühasiblərin peşəkarlıq sertifikatına malik olmasıdır. Mühasiblərin peşəkarlıq sertifikasiyasına cəlb olunması isə, adətən, qanunvericiliklə təsbit olunur.



Respublikamızda da peşəkar mühasib hüququnu əldə etmək üçün qanunvericiliklə qarşıya müəyyən tələblər qoyulub. Beynəlxalq standartlara uyğun olan bu tələblərə əsasən peşəkar mühasib hüququnu əldə etmək üçün ilk növbədə bu sahədə müvafiq sertifikata sahib olmaq lazımdır. Yalnız sertifikat əldə etmiş mühasiblər həmin sertifikatın növünə uyğun peşəkar mühasib xidməti göstərmək hüququna malikdirlər.

Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzindən verilən məlumata görə, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları"na əsasən, respublikamızda sertifikatlaşdırma ikimərhələli imtahan vasitəsilə həyata keçirilir. Belə ki, imtahanın birinci mərhələsi mühasibat uçotu, ikinci mərhələsi isə büdcə, vergi, mülki və əmək qanunvericiliyi üzrə sualları əhatə edir. Lakin Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə peşəkar mühasib sertifikatlarını əldə etmək üçün müraciət etmiş namizədlər beynəlxalq səviyyədə tanınmış sertifikatlara malik olduqları təqdirdə Nazirlər Kabinetinin təsdiq etdiyi Qaydalara əsasən, imtahanın birinci mərhələsindən azad edilirlər. Belə namizədlər yalnız imtahanın ikinci mərhələsində büdcə, vergi, mülki və əmək qanunvericiliyi üzrə suallara cavab verirlər. Bir məsələ də var ki, mühasiblərin qarşısında hansı imtahanın birinci, hansının ikinci verilməsi ilə bağlı tələb qoyulmur. Yəni mühasib istədiyi mərhələdən sertifikasiya imtahanlarını verə bilər.

Onu da əlavə edək ki, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların, iri və orta sahibkarlıq subyektlərinin, büdcə təşkilatlarının və illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin baş mühasibləri tərəfindən peşəkar mühasib sertifikatının əldə edilməsi ilə bağlı Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş müddət də sona yaxınlaşır.

Belə ki, iri və orta sahibkarlıq subyektlərinin, paylarının nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və qiymətli kağızları fond birjasında dövriyyədə olan hüquqi şəxslər istisna olmaqla, digər ictimai əhəmiyyətli qurumların baş mühasibləri 2023-cü il dekabrın 30-dək müvafiq peşəkar mühasib sertifikatına malik olmalıdırlar.

İllik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslərin 2023-cü il yanvarın 1-dək işə qəbul edilən, habelə büdcə təşkilatlarının 2023-cü il yanvarın 1-dək işə qəbul edilən baş mühasibləri isə 2024-cü il 30 dekabradək peşəkar mühasib sertifikatı almalıdırlar.

Bununla yanaşı, bir vacib nüansı da vurğulamaq lazımdır ki, Nazirlər Kabinetinin qərarına əsasən, illik maliyyə hesabatlarını və ya birləşdirilmiş maliyyə hesabatlarını dərc edən publik hüquqi şəxslər və büdcə təşkilatları 2023-cü il yanvarın 1-dən sonra müvafiq peşəkar mühasib sertifikatına malik olmayan baş mühasibləri işə qəbul edə bilməzlər.

Bütövlükdə, peşəkar müsahib hüququna malik olmaq zamanın çağırışı olmaqla yanaşı, qanunla qarşıya qoyulmuş tələbdir. Bununla bağlı Azərbaycan qanunvericiliyində müəyyən edilmiş güzəşt və azadolmalar göstərir ki, respublikamızda peşəkar mühasib olmaq istəyənlər üçün hərtərəfli imkanlar və münbit şərait mövcuddur.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 21.06.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" qəzetinə**

*abunə yazılışı davam edir!*




**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (**Tel.: (012) 539-59-33**) zəng vura bilərsiniz.*

# Təhlükəsiz istirahət önəmlidir, yoxsa təhlükəli biznes?

## Paytaxtda elektrik skuterlərinin yaratdığı qəza vəziyyətlərinin sayı getdikcə çoxalır



**Dənizkənarı Milli Parkda hava almaq üçün gəzişirdik ki, qəflətən bir neçə elektrik skuterin (e-skuter) yanımızdan ötüb keçdiyini müşahidə etdik. Elə bu vaxt bulvar ərazisində işləyən bir qadının "yenə konsert başladı" sözlərini eşitdik.**

Həmin qadına "Axı qadağa qoyulmuşdu" sualı ilə müraciətimizə dərhal reaksiya verərək "A bala, elə bu gündən yenə icazə veriblər... Hər dəqiqə də bir hadisə olur" - deyərək təzəlikcə baş vermiş hadisəni danışdı. Sən demə, iki gəncin sürdüyü e-skuterin aşması nəticəsində bir qız uşağı boyun nahiyəsindən kəsik yaraları alıb, əraziyə təcili yardım çağırılıb.

### E-skuter sürənlər öz əyləncələrində, valideynlər isə qorxu içində

Hadisələr də göstərir ki, e-skuter istifadəçiləri başqaları üçün təhlükə yaratmaqla yanaşı, öz həyatlarını da düşünmürlər. Qaydalara əsasən, e-skuter istifadəçiləri qoruyucu dəbilqədən istifadə edərək həm özünü qorumalı, həm də velosiped zolağının sağ tərəfi ilə hərəkət edərək, digər istifadəçilərlə məsafə saxlamaqla başqalarının həyatı üçün təhlükəli vəziyyət yaratmamalıdırlar.

Asudə vaxt keçirmək, dincəlmək, uşaqlarını hava almaq üçün Dənizkənarı Milli Parka gətirənlər isə çarəsiz durumda qalırlar. Çünki e-skuter idarəçiləri hər dəqiqə təhlükə yaradırlar. Elə bu səbəbdən də valideynlər bütün diqqətlərini e-skuterlərin hərəkətinə yönəltmək məcburiyyətində qalırlar.

Parklara istirahət üçün üz tutanların təhlükəli vəziyyət, baş vermiş qəzalardan bezara gələrək etdikləri şikayətlər əsasında bulvar ərazisində e-skuterlərin fəaliyyətinə qadağa qoyulmuşdu. Dənizkənarı Bulvar İdarəsindən bildirilmişdi ki, çoxsaylı şikayətlər əsasında skuterlərin bulvar ərazisində hərəkətinə qadağa qoyulub. Amma həmin qadağadan çox zaman keçməmiş ərazidə e-skuterlərin hərəkətinə yenidən icazə verilib. Baxmayaraq ki, Milli Park ərazisində skuter sürən gənclər ondan yalnız əyləncə məqsədilə istifadə edirlər. Və ölkəmizdə hələ dünya təcrübəsində olduğu kimi onlardan nəqliyyat vasitəsi kimi istifadə geniş yayılmayıb. Görünür ki, istirahət etmək, işdən sonra hava almaq üçün dəniz kənarına üz tutanların sağlamlığı yenə təhlükədədir.

### Onların istifadəsinə müəyyən sürət həddi daxilində icazə vermək lazımdır

Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov qəzetimizə açıqlamasında bildirdi ki, ölkə ərazisində, xüsusən bulvarda e-skuterlərlə bağlı müəyyən qadağa qoyulmuşdu. Bunun başlıca səbəbi vətəndaşlar arasında müəyyən narazılıqların olması, sağlamlığa zərər vurma ilə nəticələnən hadisələrin baş verməsi idi. O qeyd edib ki, e-skuterlərin hərəkəti piyadaların təhlükəsizliyi nəzərə alınmaqla tənzimlənməlidir: "Yol hərəkəti haqqında" qanunda skuterlərlə bağlı xüsusi maddə yoxdur, çünki o vaxtlar elm, texnika bu qədər inkişaf etməmişdi. Vətəndaşlar skuter və ya bu kimi digər vasitələrdən istifadə etmirdilər. Yeni texnologiyalar meydana çıxdıqca, onların hərəkəti qanunda öz əksini tapmayıb. Beləliklə, bu vasitələr piyadalara bərabər tutularaq fəaliyyət göstərir".

Ekspert vurğulayıb ki, satıcı tərəfindən hansısa xüsusi sertifikatlar olsa da, amma qeydiyyat və digər məsələlər yoxdur. Onun sözlərinə görə, skuterlərlə bağlı qanunda xüsusi maddələrin olmaması təhlükəsizlik tədbirlərini ön plana çıxarır. "Vətəndaşlar arasında skuterlərə maraq var. Xüsusən gənclər onu əyləncə vasitəsi hesab edir. Ona görə də proqramı elə qaydada işləmək lazımdır ki, həm gənclər faydalansın, həm düzgün istifadə qaydalarını mənimsəsinlər, həm də digər vətəndaşların sağlamlığı qorunsun. Skuterlərin xüsusi ayrılmış zolaqlarda, müəyyən sürət həddi daxilində istifadəsinə icazə vermək lazımdır", - deyə o əlavə edib.

### E-skuterlərin velosiped zolaqlarında hərəkəti məqsədəuyğundur

A.Əsədov bildirib ki, velosipedlərin hərəkəti ilə bağlı da qanunda hər hansı müddəa yoxdur. Ancaq bu, xüsusi anlayış kimi qəbul olunub. Son 2-3 il ərzində Bakının küçələrində, eləcə də bulvar ərazisində velosiped zolaqları çəkilib. Hazırda velosiped istifadəçiləri bu yollardan istifadə edirlər. Bu işlər əsasən dövlət proqramı çərçivəsində həyata keçirilir.

O qeyd edib ki, skuterlərin hərəkəti ilə bağlı xüsusi qayda olmadığı üçün onların velosiped yollarında müəyyən sürət həddində hərəkəti məqsədəuyğundur: "Çünki skuterlərin özünün tormozlama, sürəti təyinetmə kimi texniki göstəriciləri var. Ona görə də təhlükəsizlik qaydalarına riayət etməklə bu zolaqlarda istifadə etmələri mümkündür".

Qeyd edək ki, elektrik skuter istifadəçiləri digər hərəkət iştirakçıları kimi məsuliyyət daşıyır və qaydaları pozduqda cərimələnirlər. Hər bir e-skuter idarə edən şəxs nəzərdə tutulmuş qaydada yolun sağ hissəsi ilə bütün qaydaları icra etməklə hərəkət edə bilər. E-skuter istifadəçisi piyadaya xəsarət yetirdiyi halda sağlamlığa dəymiş ziyanın dərəcəsinə görə araşdırma aparılır. Araşdırmanın nəticəsinə əsasən, o, məsuliyyətə cəlb olunur.

İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsinə əsasən, e-skuter istifadəçisi piyada yolu ilə hərəkət edirsə, bu, inzibati məsuliyyət yaradır. Amma həm bulvar, həm də digər parklarda skuterlərin velosiped zolaqlarında deyil, əsasən piyadaların hərəkət etdiyi ərazilərdə hərəkətinin şahidi oluruq.

E-skuter istifadəçisi dəbilqədən istifadə etmədikdə 40 AZN, digər hallara görə, yəni İnzibati Xətalar Məcəlləsinin 338-ci maddəsinə əsasən, 20-100 AZN məbləğində cərimələnir. Amma yollarda dəbilqədən istifadə edən e-skuter istifadəçisinə rast gəlmək mümkün deyil. Beləliklə, öz sağlamlığının qeydinə qalmayanların digərlərinin sağlamlığına biganəliyindən ehtiyatlı olmaq lazımdır.

Onu da qeyd edək ki, e-skuterlərin törətdiyi qəza vəziyyətlərinin tez-tez şahidi olsaq da, bu haqda eşitsək də, təcili və təxirəsalınmaz tibbi yardıma bununla bağlı müraciətlərin statistikası aparılmadığı üçün neçə belə bədbəxt hadisənin baş verdiyini öyrənə bilmədik.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub

Bu ilin hazırlıq planına uyğun olaraq, Raket və Artilleriya Qoşunlarının bölmələrində atəş tapşırıqları icra edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərinin tutulması, qurğuların döyüş tətbiqinə hazırlanması və icrası üzrə tapşırıqları yerinə yetiriblər.

Təlimdə bölmələr reaktiv yaylım atəşi sistemlərindən döyüş atışları icra ediblər.

Təlimin keçirilməsində əsas məqsəd hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, raket və artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təşkilidir.

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

İyunun 19-u saat 13:35 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Moderator.az" saytının baş redaktoru

**ZÜLFÜQAR HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimova anası

**HƏMAYİL KƏRİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kollektivi AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə əzizi

**HÜSEYN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyi rəhbərliyi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Rəyasət Heyətinin üzvləri AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə əzizi

**HÜSEYN MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA Rəyasət Heyətinin üzvləri ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimova anası

**HƏMAYİL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5772
Sifariş 1548

Qiyməti 40 qəpik